Sentyabrın 3-ü. Prezident sarayı. Bu gün respublikanın ali məktəblərinə ən yüksək balla qəbul olmuş gənclər buraya Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevlə görüşə toplaşmışlar.

Dövlətimizin başçısı görüşü giriş nitqi ilə açır, sonra sözü Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri Məleykə Abbaszadəyə verir. M.Abbaszadə ali məktəblərə bu ilki tələbə qəbulunun nəticələri haqqında mə'lumat verir.

Sonra Prezidentin İcra Aparatının humanitar siyasət şö'bəsinin müdiri Fatma Abdullazadəyə söz verilir. F.Abdullazadə "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün tə'sis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanını oxuyur, həmçinin 2001/2002-ci tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamını e'lan edir.

Azərbaycan Prezidenti Heydər Əliyev Prezident təqaüdünə layiq görülmüş gənclərin hər birini təbrik edir, onlara xatirə hədiyyələri təqdim edir, təhsildə uğurlar arzulayır.

Azərbaycan Prezidenti Heydər Əliyev görüşdə yekun nitqi söyləyir. Dövlətimizin başçısının nitqi böyük diqqətlə dinlənilir və dəfələrlə hərarətli alqışlarla qarşılanır.

Hörmətli oxucular, jurnalımızın bu nömrəsi tədbirlə bağlı rəsmi materiallarla açılır, görüşün ayrı-ayrı

# Azərbaycan Prezidenti Heydər Əliyevin giriş nitqi

Əziz tələbələr! Hörmətli müəllimlər!

Xanımlar və cənablar! Ölkəmizdə - Azərbaycanda yeni tədris ili başlayıbdır. Böyük məmnuniyyətlə qeyd etmək olar ki, Azərbaycanda təhsil ilbəil inkişaf edir. Gənclərimiz, uşaqlarımız orta məktəblərdə təhsil alırlar. Demək olar ki, Azərbaycanda təhsildən kənarda qalan uşaq yoxdur. Orta məktəbi bitirənlərin, təbiidir ki, böyük bir qismi ali məktəblərdə təhsillərini davam etdirmək istəyirlər. Bunun üçün də hazırlaşırlar, öz biliklərini ölçüb-biçirlər və ali məktəblərə, universitetlərə daxil olmaq üçün mübarizəyə qoşulurlar. Bu, böyük bir işdir və hər bir gənc bizim azad, müstəqil ölkəmizdə təhsilini daha da artırmaq istəyir. Ali məktəblərə keçirilən test imtahanları nəticəsində ən bilikli gənclər ali məktəblərə daxil olurlar. Bu il Azərbaycanda bu sahədə əvvəlki illərə nisbətən daha da yaxşı nəticələr əldə olunubdur. Biz müəyyən qədər bu nəticələrə nəzər salmaq üçün buraya toplaşmışıq. Əziz tələbələr, hörmətli müəllimlər, mən sizi, Azərbaycanın bütün təhsil müəssisələrində - həm orta məktəblərdə, həm ali məktəblərdə, həm orta ixtisas məktəblərində təhsil alan uşaqlarımızı, gənclərimizi, təhsil müəssisələrində çalışan müəllimlərimizi - bütün təhsil işçilərimizi yeni dərs ilinin başlanması münasibətilə təbrik edirəm, daha yaxşı oxumağı, uşaqlara, gənclərə, təhsil sahəsində işləyənlərə daha da yaxşı çalışmağı və bu yolda yeni uğurlar qazanmağı arzu edirəm. Azərbaycanda bu il ali məktəblərə, universitetlərə 25 minə yaxın gənc qəbul olunubdur. Bu, çox gözəl bir hadisədir. Ali məktəblərə, universitetlərə qəbul olunmuş bu 25 min tələbənin içərisində ən yüksək nəticə əldə edənlər də var. Sevindirici haldır ki, bu göstəricilər ilbəil artır. Ən yüksək nəticələr əldə edənlərdən, indi bu salona nə qədər yerləşə bilərdisə, o qədər də'vət olunublar. Bu görüş isə təkcə sizə aid deyil, Azərbaycanın bütün ali məktəblərinə, universitetlərinə daxil olmuş gənclərimizə həsr edilibdir. Təbiidir ki, biz əldə olunan nəticələr və builki irəliləyiş barədə burada daha ətraflı mə'lumat almaq istəyirik. Son illər Azərbaycanda ali məktəblərə qəbul test üsulu ilə keçirilir. Ali məktəblərə qəbulun tarixi böyükdür. Ancaq Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra



***Bu il 25 minə qədər gəncin test üsulu ilə imtahanlarını verib universitetlərə, ali məktəblərə qəbul olunması, bizim, Azərbaycanın, müxtəlif problemlər içərisində yaşayan ölkənin ən əsas nailiyyətlərindən biridir.***

***HEYDƏR ƏLİYEV***

dünya təcrübəsində daha müasir, daha ədalətli hesab olunan test üsulu ölkəmizdə tətbiq olunubdur. Ötən illərin təcrübəsi onu göstərir ki, bu, həqiqətən mütərəqqi üsuldur. Bütün başqa üsullarla müqayisədə, ali məktəblərə qəbul prosesində ən ədalətli üsul kimi tanınmışdır. Ona görə də biz son illərdə bu üsulla Azərbaycanın ali məktəblərinə qəbul işlərini təşkil edirik və gündən-günə də təcrübə artır. Bu da, təbii ki, sevindirici haldır. Çünki ali məktəbə daxil olmaq üçün gənclərin çoxu maraq və həvəs göstərir, müraciət edir. Ancaq bu test üsulu ilə aparılan imtahanlar, düşünürəm ki, ədalətlidir, gənclərin içərisindən ən biliklisini seçib ali məktəblərə qəbul edirlər. Siz həmin bu test üsulu ilə keçirilən imtahanlarda uğur qazanmış ali məktəb tələbələrinin nümayəndələrisiniz. Bu barədə mə'lumat üçün Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri Məleykə Abbaszadəyə söz verilir.



# Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri Məleykə Abbaszadənin çıxışı

Möhtərəm cənab prezident! İcazə verin, hər şeydən əvvəl gərgin iş rejiminizdən vaxt ayırıb bugünkü görüşə gəldiyinizə görə Sizə bu görüşdə iştirak edən tələbə adını qazanmış bütün gənclər, təhsil işçiləri adından dərin minnətdarlığımızı bildirim.

Siz bütün möhtəşəm fəaliyyətiniz boyu həmişə gənclərimizin ən böyük hamisi, təhsilimizin ən birinci qayğıkeşi olmusunuz, təhsil sisteminə həmişə cəmiyyət həyatının strateji əhəmiyyətli bir sahəsi kimi yanaşmısınız. İqtisadiyyatın da, cəmiyyətin başqa sahələrinin də təhsilə əsaslandığını, onun üzərində qurulduğunu göstərmisiniz. "Əgər bizim yüksək təhsil potensialımız, güclü kadr potensialımız olmasa, biz nə iqtisadi potensiala, nə elmi potensiala, nə də sosial potensiala malik ola bilmərik. Yaxşı təhsil ölkənin gələcək inkişafı üçün yaxşı əsas yaradılması deməkdir". Sizə məxsus olan bu dərin fikirlər müasir cəmiyyətdə təhsilin yerini, təhsil işçilərinin vəzifələrini, özünü gələcək həyata hazırlayan gənclərimizin yolunu olduqca sərrast və aydın şəkildə göstərir.

Verilən bu imkandan istifadə edərək mən, bu il ali və orta ixtisas məktəblərinə qəbul olunmuş bütün gənclərimizi, onların müəllimlərini və valideynlərini Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının kollektivi adından ürəkdən təbrik edirəm. Mən bu şərəfə nail olmuş bütün gənclərə müraciət edərək deyirəm: Tələbə adınız mübarək, əziz dostlar! Bu uğur, bu qələbə sizin gənclik yaşınızın ilk ən yüksək zirvəsidir, eyni zamanda gələcək ömür yolunuzun bünövrəsidir.

Arzu edirəm ki, bu uğur sizin gələcək nailiyyətlərinizin möhkəm əsası olsun. Qoy qarşınızda açılan bütün yollar sizə xoşbəxtlik gətirsin. Çox istərdim ki, seçdiyiniz ixtisasa dərindən yiyələnəsiniz, öz sahənizin peşəkarı olasınız, Vətənimizə, xalqımıza layiqli vətəndaş kimi formalaşasınız. Bu il respublikamızın 25 dövlət, 14 özəl ali məktəbinə - 29 min 787 yerə və 62 dövlət, 5 özəl orta ixtisas məktəbinə - 12 min 911 yerə qəbul imtahanı aparılmışdır. Gəlin e'tiraf edək ki, 82 min ali məktəb abituriyenti və 15 min orta ixtisas məktəbi abituriyentinin qısa müddət ərzində imtahanını keçirmək həm təşkilati, həm də idarəetmə baxımından olduqca çətin və məs'uliyyətli işdir. İmtahanların gedişi prosesinin idarə olunmasında Dövlət Komissiyasının əməkdaşlarından əlavə, elmi-pedaqoji ictimaiyyətin 4 mindən çox nümayəndəsi iştirak etmişdir.

İcazə verin, imtahan prosesinin təşkili və idarə olunmasında iştirak edənlərin hamısına Dövlət Komissiyasının kollektivi adından minnətdarlığımı bildirim. Bunlar orta məktəblərin 3 mindən çox müəllimidir, imtahanların keçirildiyi 100-dən çox təhsil müəssisəsinin rəhbəridir, müxtəlif dövlət strukturlarının bilavasitə imtahanlara rəhbərlik etmiş 300-dən çox elmi-pedaqoji işçilərinin nümayəndəsidir. Mən bu böyük köməyə görə Təhsil Nazirliyinə, Milli Elmlər Akademiyasına və digər dövlət qurumlarına dərin təşəkkürümü bildirirəm.

İmtahan günlərində həmçinin ictimai asayişə cavabdeh olan bütün dövlət strukturlarının işinin dəqiq əlaqələndirilməsi tələb olunurdu. Mən, xüsusən Baş Mühafizə İdarəsinin, Daxili İşlər Nazirliyinin və Rabitə Nazirliyinin, Səhiyyə Nazirliyinin, Tə'cili Tibbi Yardım Xidmətinin və "Azərbaycan Hava Yolları" Dövlət Konserninin əməkdaşlarına dərin təşəkkürümü bildirirəm. Onların hər bir hadisəyə həssas və peşəkar münasibəti qəbul imtahanlarını yüksək təşkilati səviyyədə keçirməyə imkan vermişdir.

Qəbul kampaniyası kifayət qədər geniş sosial tə'sirlə səciyyələnən kütləvi bir prosesdir. Burada respublikanın bütün şəhərlərini və rayonlarını təmsil edən mə'zunlar iştirak edirlər. Demək olar ki, bu prosesdən hər bir ailənin mə'lumatı olur.

Bu imtahanların nəticəsi əsasında cəmiyyət ölkənin hər bir vətəndaşına bərabər ali təhsil almaq tə'minatı verən qanunların və sosial tə'sisatların işləklik dərəcəsinə qiymət verir. Başqa sözlə, imtahanların nəticəsi dövlətə və dövlətçiliyə inamın yüksəlməsinə tə'sir göstərə bilər və əksinə.

Bu il biz Azərbaycanın müstəqilliyinin 10 illiyini qeyd edirik. Eyni zamanda bu il ölkəmizdə ali və orta ixtisas məktəblərinə onuncu dəfə mərkəzləşdirilmiş şəkildə, test üsulu ilə qəbul aparmışıq. Bizim ölkəmiz keçmiş sovet respublikaları içərisində ilk dəfə 1992-ci ildə qəbul imtahanlarının yeni formasına keçmişdir. O vaxt qəbul edilən qərar ən'ənəvi imtahan prosesinə xas olan subyektivizm və digər neqativ halların aradan qaldırılmasına yönələn xalis siyasi qərar idi. Ötən 9 il ərzində həmin qərardan hər kəs üçün bərabər ali təhsil almaq imkanlarını tə'min edən açıq sosio-texniki sistemin qurulmasına qədər uzun bir yol keçilmişdir.

Dünya təcrübəsi təsdiq edir ki, hər hansı bir ölkədə biliyin qiymətləndirilməsinin yeni sisteminin qurulması çoxlu çətinliklərlə üzləşir. Bir çox ölkələrdə isə bu, demək olar ki, mümkün olmur. Bizim ölkəmizdə də belə çoxsaylı çətinliklər olubdur. Ortaya belə bir sual çıxır: bəs necə oldu ki, biz davam gətirə bildik? Aydın məsələdir ki, burada çoxlu amillər vardır. Mən onlardan ancaq iki ən vacibini qeyd etmək istəyirəm. Birincisi, Azərbaycan cəmiyyəti yeni imtahan sisteminə keçilməsi üçün yetişmişdi. Belə bir dəyişikliyi qəbul etmişdi. İkincisi, bu dəyişikliyin həyata keçməsi üçün siyasi dəstək zəruri idi. Ötən dövr ərzində yeni sistemin qurulub möhkəmlənməsinə verilən siyasi dəstəyə görə, möhtərəm cənab prezident, biz

tamamilə və bütünlüklə məhz Sizə minnətdar olmalıyıq. Məhz bunun nəticəsidir ki, bu gün Azərbaycanda cəmiyyətə və abituriyentlərə xidmət edən açıq sosio-texniki sistem fəaliyyət göstərir.

Bu, özündə müxtəlif fəaliyyət istiqamətlərini və mərhələlərini birləşdirən, özünə sistem yanaşma və vəzifələrin kompleks qaydada həllini tələb edən mürəkkəb bir sistemdir. İmtahanların məzmununun hazırlanması prosesi; ölkənin bütün şəhər və rayonlarında sənədlərin qəbulunun təşkili prosesi; imtahanların özünün təşkili və idarə edilməsi prosesi; imtahan nəzarətçiləri hey'ətinin və imtahanların keçiriləcəyi binaların hazırlanması prosesi; optik oxu formalarının yaradılması və çap edilməsi, verilənlər bazasının yaradılması və informasiyanın e'malı prosesi; imtahanların nəticələrinin yoxlanması və onun hər bir abituriyentə çatdırılması prosesi; apelyasiya prosesi, elmi-statistik təhlil və təhsilin vəziyyətinin monitorinqi -bütün bu texnoloji silsilə 42 nəfərdən ibarət kollektivimiz tərəfindən yalnız həmin proseslərə yeni informasiya texnologiyalarının tətbiqi sayəsində mümkün olmuşdur.

Bu ildən isə qəbul kampaniyasının bütün mərhələlərini internetdə açdığımız saytda əyani surətdə izləmək olar. Biz imtahan prosesinin informasiya tə'minatı proqramını hazırlayıb İnternetdəki saytımızda yerləşdirmişik. Bu proqram hər bir abituriyentə qəbulla bağlı bütün zəruri informasiyaları, o cümlədən ali məktəbə daxil olmaqla bağlı mə'lumatı öyrənməyə imkan vermişdir. May ayının 15-dən bu günədək bizim sayta 100 mindən çox müraciət olubdur. Bu isə bir daha əhalinin ona zəruri olan mə'lumatları əldə etmək üçün yeni informasiya texnologiyalarından istifadəyə hazır olduğunu nümayiş etdirir.

Öz biliyini zənginləşdirmək istəyən hər bir gəncə kömək göstərmək bizim fəaliyyətimizin mühüm istiqamətlərindən biridir. Buraya il boyu elmi-metodiki və informatik materialların dərc edildiyi "Abituriyent" jurnalının müntəzəm nəşri, ölkənin 32 bölgəsində keçirilən sınaq imtahanları (bu il həmin imtahanlardan 45 min gənc keçibdir), çap olunub abituriyentlərin və müəllimlərin istifadəsinə verilmiş test bankı topluları, internet vasitəsilə aparılan informasiya mübadiləsi, peşəyönümlü psixoloji xidmət və sair daxildir.

Hər il mərkəzləşdirilmiş qaydada test üsulu ilə keçirilən qəbul imtahanları nəticələrinin təhlili bizə imkan verir ki, orta məktəb təhsilinin bütövlükdə ölkə üzrə, bölgələr üzrə və hətta ayrıca hər bir məktəb üzrə vəziyyətini praktiki surətdə elmi nöqteyi-nəzərdən qərəzsiz qiymətləndirə bilək.

Ölkəmizdə təhsilin vəziyyətini elmi surətdə əsaslandıran bu monitorinqi Dövlət Komissiyasında işlənib hazırlanmış xüsusi tətbiqi-statistik təhlil əsasında aparılır.

Mən indi Sizə bu ilin nəticələri barədə bir neçə statistik rəqəmlər deyəcəyəm. Amma, ümumiyyətlə, bütün bu rəqəmlər "Abituriyent" jurnalının 12-ci nömrəsində dərc olunacaqdır. Hər il olduğu kimi, biz noyabr ayında ölkənin bütün bölgələrində elmi-metodiki konfranslar keçirəcəyik, pedaqoji ictimaiyyətlə görüşəcəyik. Hər bir məktəbə ona aid olan mə'lumatı xüsusi kitabçalarda çap edib çatdıracağıq.

Cənab prezident, biz statistik nəticələri Sizin üçün də xüsusi çap edib hazırlamışıq. Çıxışımın sonunda onu Sizə təqdim edəcəyəm. Gəlin builki imtahanlarda hansı nəticələr əldə edildiyinə nəzər yetirək. Bunlar keçənilki nəticələrlə müqayisədə daha yaxşıdır. Orta statistik abituriyent bu il ana dilindən 40 faiz, riyaziyyatdan 32 faiz, fizikadan 28 faiz, kimyadan 29 faiz, biologiyadan 41 faiz, tarixdən 33 faiz, coğrafiyadan 40 faiz və ingilis dilindən 26 faiz bilik nümayiş etdiribdir. Bu, Azərbaycan bölməsinə aid olan rəqəmlərdir. Keçənilki nəticələr isə, təxminən hər bir fənn üzrə 5-10 faiz aşağı idi.

Bu il imtahanlara biz ümumiləşdirilmiş fənn bloku daxil etmişdik. Ümumiləşdirilmiş fənn blokunun nəticələri 34 faizdir. Bu fənn blokuna hər bir qrup üzrə Azərbaycanın tarixinə, ədəbiyyatına, coğrafiyasına aid suallar daxil edilmişdi. Rus bölməsində imtahan verən abituriyentlər ümumiləşdirilmiş fənn blokunda Azərbaycan dilində olan üç suala cavab verməli idilər. Biz görürük ki, builki orta statistik abituriyent, – düzdür, əslində, belə abituriyent yoxdur, bu, müəyyən



rəqəmlərdir, – keçənilki orta statistik abituriyentdən daha yüksək nəticə göstəribdir.

Ümumiyyətlə, hər il biz qəbul imtahanlarında abituriyentlərin topladıqları ballar üzrə statistikanı aparırıq. Bu il 0-100 bal arasında nəticə göstərən abituriyentlər 26 faiz olubdur. Keçən il bu göstərici 36 faiz idi. Görürük ki, 2 qiymət alanların sayı təxminən 10 faiz azalıbdır. Çünki 0-100 bal arasındakı nəticə o deməkdir ki, 10 il məktəbə gedən uşaq məktəb proqramının təxminən 10 faizini də mənimsəməyibdir. 100-200 bal arasında nəticə göstərən abituriyentlər bu il 27 faizdir. Keçən il belə abituriyentlər 29 faiz idi.

Burada da görürük ki, yaxşı nəticə göstərməyən abituriyentlərin sayı bir qədər azalıbdır.

200-300 bal arasında nəticə göstərən abituriyentlər, – bu, "3" qiymətə layiq olanlardır, – bu il 20 faiz təşkil edir. Keçən il belə abituriyentlər 17 faiz olmuşdur. Görürsünüz ki, "2" qiymət alanların sayı azalıbdır, "3" qiymət alanların sayı isə bir az artıbdır.

300-400 bal arasında nəticə göstərən abituriyentlər "4" qiymətə

layiq olan şəxslərdir. Bu il onlar abituriyentlərin 20 faizini təşkil edir. Keçən il belə abituriyentlər 14 faiz idi. Deməli, "4" qiymət alanların sayı da artıbdır.

Nəhayət, 500-700 bal arasında nəticə göstərən abituriyentlərin sayı bu il 5 faiz təşkil edir. Keçən il belə abituriyentlərin sayı 2 faiz idi. Ümumiyyətlə, 600 baldan yuxarı nəticə göstərən abituriyentlərin sayı bu il 891 nəfərdir. Keçən il isə 267 belə abituriyent olmuşdur.

Çünki bu sirrdir. Amma onu deyə bilərəm ki, 1996-cı illə müqayisə etsək, Azərbaycan Ali Hərbi Məktəbində 1996-cı ildə keçid balı 96 idisə, 2001-ci ildə 157 bal olubdur. Onu da qeyd etməliyəm ki, Polis Akademiyasına biz cəmi 25 nəfər qəbul edirik. Bu il həmin o gənclərin 20 nəfəri 500-dən yuxarı bal toplamışdır, 6 nəfəri isə 600 baldan yuxarı nəticə göstərmişdir.

Beləliklə, biz görürük ki, bütün ali



Hər il biz 600-dən yuxarı bal toplayan abituriyentlərin təcrübəsinin öyrənilməsinə, onların ictimaiyyətə tanıdılmasına xüsusi diqqət yetiririk. Biz belə gənclərlə fəxr edirik. Onlar bizim ölkəmizin gələcək intellektual potensialıdır və əsl mə'nada ə'laçı, iste'dadlı gənclərdir. Biz "Abituriyent" jurnalının gələn nömrəsini də məhz onlara həsr edəcəyik. İnternetdəki saytımızda nümayiş etdirmək üçün onlarla bağlı xüsusi layihə hazırlamışıq. Onlar bu imkanlardan istifadə edərək gələcək abituriyentlərə, öz kiçik bacı və qardaşlarına belə yüksək nəticələrə necə nail olduqları barədə ətraflı mə'lumat verə biləcəklər.

600 baldan yuxarı nəticə göstərən abituriyentlər ölkəmizin müxtəlif regionlarında yerləşən 362 məktəbin mə'zunlarıdırlar. Onların arasında qaçqın ailəsindən olan 19 gənc vardır. Mən bir faktı da qeyd etmək istəyirəm. Siz bilirsiniz ki, biz ölkəmizin hərbi məktəblərinə də qəbul aparırıq. Bununla bağlı rəqəmləri deməyə ixtiyarım yoxdur.

məktəblərdə belə yüksək nəticə göstərən abituriyentlərin sayı çoxalır. Yüksək nüfuzu olan ali məktəblərin tələbələrinin tərkibinə fikir versək görərik ki, bu il Bakı Dövlət Universitetinə ölkəmizin 82 bölgəsindən, Azərbaycan Tibb Universitetinə 70, Azərbaycan Dövlət Pedaqoji Universitetinə 81, Azərbaycan Dövlət İqtisad Universitetinə 80, Azərbaycan Dillər Universitetinə 64 bölgədən gənclər qəbul olunmuşlar.

Bütün bu nəticələr belə bir faktı əyani surətdə təsdiq edir ki, tələbə seçimi üçün yeganə me'yar bilikdir. Biliyin obyektiv qiymətləndirilməsinin mövcud sistemi gənclərimizdə ali məktəbə öz bilik və bacarığı ilə qəbul olmağa möhkəm inam yaratmışdır. Bu da onların arasında oxumağa, öz bilik səviyyəsini artırmağa dərin maraq və tələbat doğurubdur. Bu, gənclərin qəbul imtahanlarındakı nəticələrinin ildən-ilə yüksəlməsinin ən mühüm amilidir. Başqa sözlə desək, yeni imtahan sisteminin ardıcıl tətbiqi gənclərin bilik səviyyəsinin artmasına, onların təhsilinin keyfiyyətinin yüksəlməsinə tə'sir edən həlledici amil kimi özünü göstərir. Bütövlükdə bu, bizim bütün təhsil sistemimizin keyfiyyətinə tə'sir göstərən amilə çevrilir.

Dünyada qloballaşma prosesi gedir. Qlobal iqtisadiyyat inkişaf etdikcə, bütün ölkələrdə mütəxəssislərin iqtisadi bilik səviyyələrinin bərabərləşməsinə tələbat artır. Dünyanın inkişafından kənarda qalmamaq üçün bizə elə kadrlar lazımdır ki, onların peşəkarlığı beynəlxalq standartlara cavab versin. Ölkəmizdə təhsil sahəsində aparılan islahatlar da məhz bu məqsədə xidmət etməlidir. Təhsil islahatının özəyi, açarı gənclərin təhsilinin keyfiyyətini yüksəltmək olmalıdır. Nəticədə bizim gənclər dünya bazar iqtisadiyyatında gedən rəqabətə daha yaxşı hazır olmalıdırlar. Son iki ildə Dövlət Komissiyasının bu istiqamətdə apardığı işlərdən biri də beynəlxalq əlaqələr yaratmaq, təhsildə qiymətləndirmə prosesini dünyada qəbul olunmuş standartlara uyğun qurmaqdır. Biz ABŞ-ın ETS - Təhsildə Testləşdirmə Xidməti Təşkilatı, Fransanın Təhsili Planlaşdırma Beynəlxalq İnstitutu, YUNESKO-nun bu sahədə xidmət göstərən strukturları ilə əlaqə yaratmış, beynəlxalq konfranslarda iştirak etmişik.

Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın üzvü olmuşuq.

Biz öz övladlarımızın yüksək səviyyədə təhsil almaları üçün çalışırıq və çalışmaqda davam edəcəyik. Bu isə demokratik cəmiyyət üçün zəruri bir normadır. Biz ümid edirik ki, işimizin özəyini təşkil edən biliyin obyektiv qiymətləndirilməsi prinsipi təhsil sistemimizin bütün pillələrində öz yerini tutacaq və bunun nəticəsində gənclərimizin bilik səviyyəsi getdikcə, durmadan artacaqdır. Ölkədə gedən təhsil islahatları da məhz bu ümumi məqsədə yönəldiləcəkdir.

Möhtərəm cənab prezident, çıxışımın sonunda, mən Sizə yenə də öz dərin minnətdarlığımı bildirirəm və icazə verin, tam statistik araşdırmalara aid olan mə'lumatı Sizə təqdim edim.

## Prezidentin İcra Aparatının Humanitar Siyasət Şö'bəsinin müdiri Fatma Abdullazadənin çıxışı



*Prezidentin İcra Aparatının humanitar siyasət şö'bəsinin müdiri Fatma Abdullazadə "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün tə'sis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanını oxudu.*

*Fatma Abdullazadə həmçinin "2001–2002-ci tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamını oxudu.*

### Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün tə'sis edilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikasında təhsil sahəsində yüksək nəticələr əldə etmiş tələbələrə dövlət qayğısını gücləndirmək, onların təhsil alması üçün daha əlverişli şərait yaradılmasını tə'min etmək və təhsilə olan həvəslərini artırmaq məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının ali məktəblərinə qəbul imtahanlarında ən yüksək nəticə göstərmiş 25 nəfər tələbə üçün hər biri 200 000 (iki yüz min) manat məbləğində Prezident təqaüdü tə'sis edilsin.

2. Müəyyən edilsin ki, Prezident təqaüdü Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə cari tədris ilinin birinci semestri üçün tə'yin olunur və bu müddətdən sonra həmin gənclərə təqaüdün verilməsinin davam etdirilməsi haqqında qərar onların təhsildəki göstəricilərinə uyğun olaraq ali təhsil müəssisəsinin təqdimatı əsasında Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən qəbul edilir.

3. Müəyyən edilsin ki, Prezident təqaüdünün verilməsi Azərbaycan Respublikasının dövlət büdcəsinin təhsil xərcləri maddəsi hesabına həyata keçirilir.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

5. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti.***
***Bakı şəhəri, 3 sentyabr 2001-ci il.***

### 2001-2002-ci tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün tə'sis edilməsi haqqında" 3 sentyabr 2001-ci il tarixli Fərmanına uyğun olaraq qəqara alıram:

1. 2001-2002-ci tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş aşağıdakı tələbələrə Prezident təqaüdü verilsin:

*Abbasova Günay Rəfayil qızı*
*Axundzadə Humay Tufan qızı*
*Cabbarova Afət Seyidağa qızı*
*Dəmirov Orxan Novruz oğlu*
*Əkbərova Aysel Təyyar qızı*
*Əkbərov Sergey Sergey oğlu*
*Əliyeva Tamilə İqor qızı*
*Əliyev Ziya Vahid oğlu*
*Əşrəfzadə Elvin Ülfət oğlu*
*Fətullayev Rauf Əbülfət oğlu*
*Həsənquliyev Asəf Qabil oğlu*
*Xancığazov Tural Tofiq oğlu*
*İbrahimova Mehin Cəbrayıl qızı*
*İbrahimova Nailə İlham qızı*
*İslamova Aysel Nazir qızı*
*İsmayılov Hüseyn Rafiq oğlu*
*Qaralov Rüfət İspəndiyar oğlu*
*Quliyeva Nigar Məmmədkərim qızı*
*Quliyev İslam Eldar oğlu*
*Məmmədov Cavid Rövşən oğlu*
*Məmmədov Sübhan Bahadur oğlu*
*Rəhimov İntiqam Əkbər oğlu*
*Seyidov Murad Salamat oğlu*
*Şirvanzadə Lamiyə Namiq qızı*
*Zülfüqarov Ülvi Vaqif oğlu*

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu Sərəncam dərc edildiyi gündən qüvvəyə minir.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti.***
***Baki şəhəri, 3 sentyabr 2001-ci il.***

***Beş təqaüd Azərbaycanın Ermənistan silahlı qüvvələrinin işğalı altında olan rayonlar arasında ən yüksək bal toplayan abituriyentlər üçün tə'sis edilmişdir.***

### *HƏSƏNQULİYEV Asəf Qabil oğlu*



668,75 bal toplamışdır. Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Kəlbəcər rayonunun sakinidir. Müvəqqəti olaraq Abşeron rayonunda məskunlaşmışdır. Kəlbəcər rayonunun 117 nömrəli orta məktəbinin mə'zunudur. Azərbaycan Dövlət İqtisad Universitetinin beynəlxalq iqtisadi münasibətlər fakültəsinə daxil olmuşdur.

### *ƏKBƏROVA Aysel Təyyar qızı*



668,5 bal toplamışdır. Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Ağdam rayonunun sakinidir. Müvəqqəti olaraq Binəqədi rayonunda məskunlaşmışdır. Ağdam rayonunun 71 nömrəli orta məktəbinin mə'zunudur. Azərbaycan Tibb Universitetinin müalicə işi fakültəsinə daxil olmuşdur.

### *ƏŞRƏFZADƏ Elvin Ülfət oğlu*



658,75 bal toplamışdır. Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Qubadlı rayonunun sakinidir. Müvəqqəti olaraq Abşeron rayonunda məskunlaşmışdır. Qubadlı rayonunun Dondarlı kənd orta məktəbinin mə'zunudur. Bakı Dövlət Universitetinin beynəlxalq hüquq fakültəsinə daxil olmuşdur.

### *İBRAHİMOVA Mehin Cəbrayıl qızı*



655 bal toplamışdır. Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Füzuli rayonunun sakinidir. Müvəqqəti olaraq Bakı şəhərinin Xətai rayonunda məskunlaşmışdır. Xətai rayonundakı 245 nömrəli orta məktəbin mə'zunudur. Azərbaycan Dillər Universitetinin beynəlxalq münasibətlər fakültəsinə qəbul olunmuşdur.

### *İSMAYILOV Hüseyn Rafiq oğlu*



650,625 bal toplamışdır. Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Qubadlı rayonunun sakinidir. Müvəqqəti olaraq Sumqayıt şəhərində məskunlaşıbdır. Sumqayıt şəhərindəki "İste'dad" Litseyinin mə'zunudur. Azərbaycan Dövlət İqtisad Universitetinin beynəlxalq iqtisadi münasibətlər fakültəsinə daxil olmuşdur.

***Xüsusi təqaüd çadır şəhərciyində məskunlaşan, orada fəaliyyət göstərən məktəblərin mə'zunları arasında ən yüksək bal toplayan abituriyentə verilir.***

### *RƏHİMOV İntiqam Əkbər oğlu*



439,750 bal toplamışdır. Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Cəbrayıl rayonunun sakinidir. Müvəqqəti olaraq Biləsuvar rayonundakı 1 nömrəli çadır şəhərciyində məskunlaşıbdır. Cəbrayıl rayonundakı 8 nömrəli orta məktəbin mə'zunudur. Azərbaycan Dillər Universitetinin filologiya fakültəsinə daxil olmuşdur.

***Xüsusi iki təqaüd birinci qrup əlil abituriyentlər arasında ən yüksək bal toplayanlara verilmişdir.***

### *MƏMMƏDOV Sübhan Bahadur oğlu*



564 bal toplamışdır. Kor və zəif görən uşaqlar üçün respublika internat məktəbinin mə'zunudur. Bakı Dövlət Universitetinin filologiya fakültəsinə qəbul olunmuşdur.

### *SEYİDOV Murad Salamat oğlu*



554 bal toplamışdır. Kor və zəif görən uşaqlar üçün respublika internat məktəbinin mə'zunudur. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan dili və ədəbiyyatı fakültəsinə daxil olmuşdur.

***Dörd təqaüd riyaziyyat, fizika, mühəndislik və texniki ixtisasları seçmiş 1-ci qrup abituriyentləri arasında ən yüksək bal toplayanlar üçün tə'sis edilmişdir.***

### *ƏLİYEVA Tamilə İqor qızı*



686,25 bal toplamışdır. Bakı şəhəri Yasamal rayonu Avropa Litseyinin mə'zunudur. Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat fakültəsinə qəbul olunmuşdur.

### *ƏKBƏROV Sergey Sergey oğlu*



682,875 bal toplamışdır. Bakı şəhəri Qaradağ rayonunun 139 nömrəli orta məktəbinin mə'zunudur. Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat fakültəsinə daxil olmuşdur.

### QULİYEVA Nigar Məmmədkərim qızı



676,875 bal toplamışdır. Baki şəhəri Xətai rayonu 88 nömrəli orta məktəbin mə'zunudur. Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat fakültəsinə daxil olmuşdur.

### FƏTULLAYEV Rauf Əbülfət oğlu



672,5 bal toplamışdır. Bakı şəhəri Suraxanı rayonunun 279 nömrəli orta məktəbinin mə'zunudur. Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat fakültəsinə daxil olmuşdur.

***Dörd təqaüd iqtisadiyyat, idarəetmə və coğrafiya ixtisaslarını seçmiş 2-ci qrup abituriyentləri arasında ən yüksək bal toplayanlar üçün tə'sis edilmişdir.***

### QARALOV Rüfət İspəndiyar oğlu



696,875 bal toplamışdır. Bakı şəhəri Xətai rayonu Bakı özəl Türk Litseyinin mə'zunudur. Azərbaycan Dövlət İqtisad Universitetinin beynəlxalq iqtisadi münasibətlər fakültəsinə daxil olmuşdur. Onun topladığı bal respublika üzrə ən yüksək nəticədir.

### MƏMMƏDOV Cavid Rövşən oğlu



694,375 bal toplamışdır. Lerik rayonunun 1 nömrəli orta məktəbinin mə'zunudur. Azərbaycan Dövlət İqtisad Universitetinin beynəlxalq iqtisadi münasibətlər fakültəsinə daxil olmuşdur. Respublika üzrə ikinci

### ƏLİYEV Ziya Vahid oğlu



691,25 bal toplamışdır. Sumqayıt şəhər texniki və təbiət elmləri üzrə litseyin mə'zunudur. Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının inzibati idarəetmə fakültəsinə daxil olmuşdur.

### XANCIĞAZOV Tural Tofiq oğlu



691,25 bal toplamışdır. Bakı şəhəri Sabunçu rayonunun 96 nömrəli orta məktəbinin mə'zunudur. Azərbaycan Dövlət İqtisadiyyat Universitetinin beynəlxalq iqtisadi münasibətlər fakültəsinə daxil olmuşdur.

***Dörd təqaüd humanitar, incəsənət və musiqi ixtisaslarını seçmiş 3-cü qrup abituriyentləri arasında ən yüksək bal toplayanlar üçün tə'sis edilmişdir.***

### ŞİRVANZADƏ Lamiyə Namiq qızı



691,5 bal toplamışdır. Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Zəngilan rayonunun sakinidir. Müvəqqəti olaraq Sumqayıt şəhərində məskunlaşmışdır. Sumqayıt şəhərindəki 15 nömrəli orta məktəbin mə'zunudur. Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər fakültəsinə daxil olmuşdur. Respublika üzrə dördüncü nəticə nümayiş etdirmişdir.

### ZÜLFÜQAROV Ülvi Vaqif oğlu



691,25 bal toplamışdır. Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonundakı Naxçıvan Türk Litseyinin mə'zunudur. Bakı Dövlət Universitetinin hüquqşünaslıq fakültəsinə daxil olmuşdur.

### QULİYEV İslam Eldar oğlu



687,5 bal toplamışdır. Bakı şəhəri Binəqədi rayonundakı Bakı Özəl Türk Litseyinin mə'zunudur. Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər fakültəsinə daxil olmuşdur.

### DƏMİROV Orxan Novruz oğlu



684,375 bal toplamışdır. Bakı şəhəri Nərimanov rayonundakı 207 nömrəli orta məktəbin mə'zunudur. Bakı Dövlət Universitetinin hüquqşünaslıq fakültəsinə daxil olmuşdur.

***Dörd təqaüd tibb, kimya, biologiya və idman ixtisaslarını seçmiş 4-cü qrup abituriyentləri arasında ən yüksək bal toplayanlar üçün tə'sis edilmişdir.***

### İSLAMOVA Aysel Nazir qızı



691,875 bal toplamışdır. Bakı şəhəri Xətai rayonundakı 245 nömrəli orta məktəbin mə'zunudur. Azərbaycan Tibb Universitetinin müalicə işi fakültəsinə daxil olmuşdur. Respublika üzrə üçüncü nəticə nümayiş etdirmişdir.

### ABBASOVA Günay Rəfayil qızı



688,75 bal toplamışdır. Xanlar rayonundakı 3 nömrəli orta məktəbin mə'zunudur. Azərbaycan Tibb Universitetinin müalicə işi fakültəsinə daxil olmuşdur.

### CABBAROVA Afət Seyidağa qızı



685,375 bal toplamışdır. Bakı şəhəri Nərimanov rayonundakı 291 nömrəli Ekologiya Litseyinin mə'zunudur. Azərbaycan Tibb Universitetinin müalicə işi fakültəsinə daxil olmuşdur.

### İBRAHİMOVA Nailə İlham qızı



683,875 bal toplamışdır. Gəncə şəhəri Nizami rayonundakı 4 nömrəli orta məktəbin mə'zunudur. Azərbaycan Tibb Universitetinin müalicə işi fakültəsinə daxil olmuşdur.

***Bir təqaüd pedaqoji ixtisasları seçmiş 5-ci qrup abituriyentləri arasında ən yüksək bal toplayan üçün tə'sis edilmişdir***

### AXUNDZADƏ Humay Tufan qızı



610,375 bal toplamışdır. Bakı şəhəri Binəqədi rayonundakı 115 nömrəli orta məktəbin mə'zunudur. Bakı Dövlət Universitetinin psixologiya fakültəsinə daxil olmuşdur.

Azərbaycan Prezidenti Heydər Əliyev Prezident təqaüdünə layiq görülmüş gənclərin hər birini təbrik etdi və onlara xatirə hədiyyələri təqdim etdi, təhsildə uğurlar arzuladı.

Görüşdə Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, baş nazirin müavini Elçin Əfəndiyev, Prezidentin katibliyinin rəisi Dilarə Seyidzadə, Prezidentin İcra Aparatının şöbə müdirləri Fatma Abdullazadə, Əli Həsənov, təhsil naziri Misir Mərdanov və digər rəsmi şəxslər iştirak edirdilər.

Azərbaycan Prezidenti Heydər Əliyev görüşdə yekun nitqi söylədi.

## Azərbaycan Prezidenti Heydər Əliyevin yekun nitqi



Mən Prezident təqaüdünə layiq görülmüş bizim sevimli gənclərimizi xüsusi təbrik edirəm. Ümidvaram ki, onlar qəbul imtahanlarında göstərdikləri yüksək nəticələri universitetlərdə oxuyacaqları vaxtda da nümayiş etdirəcəklər və universitetləri bitirənədək Prezident təqaüdünü hər iı alacaqlar.

Əziz tələbələr! Hörmətli müəllimlər! Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri Məleykə Abbaszadənin verdiyi qısa mə'lumat bu il ali məktəblərə və orta ixtisas məktəblərinə aparılan imtahanların nəticələrini nümayiş etdirdi. Bu, qısa mə'lumatdır və biz eşitdik, bildik ki, daha da geniş mə'lumat veriləcəkdir. Mən tövsiyə etdim ki, bu il test üsulu ilə keçirilən imtahanlara həm hazırlıq prosesi, həm də əldə olunan nəticələr haqqında mətbuatda da geniş mə'lumat verilsin. Çünki bu məsələ, yə'ni gənclərin universitetlərə, ali məktəblərə, orta ixtisas məktəblərinə daxil olması prosesi təkcə onlara və onların valideynlərinə aid deyildir. Bu, bizim bütün cəmiyyətimizə aiddir və bütün cəmiyyətin ən çox marağını cəlb edən bir prosesdir. Ona görə də xalqımız, vətəndaşlarımız bilməlidirlər ki, bu proses necə keçib, necə keçir və ildən-ilə bu proses nə cür təkmilləşir, imtahan verənlərin bilik səviyyəsi ildən-ilə nə qədər artır və bütün bu prosesin nəticəsində gənclər nə qədər ədalətli qəbul olunurlar. Çünki burada mə'lumat verildi, 82 min nəfər ali məktəblərə, universitetlərə qəbul olmaq üçün müraciət etmiş, ərizə vermiş, bu istəklərini bildirmişdir. Təbiidir ki, bu, ötən tədris ilində bütün orta məktəblərin hamısının buraxdığı, yə'ni hamısını bitirən gənclərin, uşaqların sayından azdır. Ancaq əgər bizim ölkəmizdə, cəmi 8 milyon əhalisi olan ölkədə 82 min gənc orta məktəbi bitirəndən sonra təhsilini ali məktəbdə, universitetlərdə davam etdirmək istəyirsə, artıq bu, bizim xalqımız, cəmiyyətimiz üçün çox yaxşı göstəricidir.Biz heç də hesab etmirik ki, orta məktəbi bitirən hər bir gənc mütləq ali təhsil almağa, universitetlərə daxil olmağa həvəs göstərməlidir, yaxud çalışmalıdır. Çünki orta təhsil almış gənclər həyatın müxtəlif sahələrində özlərinə müəyyən iş yerləri tapmaq və öz həyatını qurmaq imkanına malikdir. Bizim əsas nailiyyətimiz ondan ibarətdir ki, hələ çox illər bundan öncə Azərbaycanda orta təhsil icbari olubdur və bu, davam edir. Bilməlisiniz ki, bu, hər ölkədə yoxdur. Bə'zi ölkələrdə, hətta inkişaf etmiş ölkələrdə icbari təhsil 8-ci sinfə qədər olur. Yaxud elə ölkələr var ki, icbari təhsili 8 illik təhsil səviyyəsinə indi qaldırmaq istəyirlər. Amma Azərbaycanda hələ xeyli zaman bundan öncə orta məktəbi bitirmək icbari təhsil kimi qəbul olunub və bütün gənclərimiz təhsilə cəlb olunub, təhsil alıb və savadlanıbdır. Bu

təhsili alandan sonra hansı yerdə öz fəaliyyətini davam etdirəcəksə, artıq bunun təhsili vardır. Bu, bizim böyük nailiyyətimizdir, xalqımızın nailiyyətidir, millətimizin nailiyyətidir. Ancaq həyatın müxtəlif sahələri var. Müasir həyatda da, bilirsiniz ki, elmi-texniki tərəqqi, ümumiyyətlə, bütün sahələrdə tərəqqi çox böyük sür'ət alıbdır. Ona görə də biz dünyanın bax, bu prosesi ilə ayaqlaşmalıyıq. Xüsusən bizim müstəqil dövlət olmağımız, artıq 10 ildir azad yaşamağımız, müstəqil dövlət olaraq dünyada tanınmağımız və dünya birliyində yer tutmağımız onu tələb edir ki, bizim ölkəmizin, xalqımızın bütün sahələrdə gərək yüksək ixtisasa malik olan, dünyada gedən elmi-texniki proseslə nəinki ayaqlaşan və bəlkə də müəyyən istiqamətlərdə onu qabaqlayan, buna qabil ola bilən kadr potensialı olmalıdır. Buna görə də biz, ümümiyyətlə, təhsil sahəsinə xüsusi fikir veririk. Çünki bizim əhalimizin hamısı təhsilli olmalıdır. Hər bir uşaq məktəb həyatı keçməlidir. Məktəb həyatı təkcə təhsil vermir, eyni zamanda bu, yüksək tərbiyə ocağıdır. Bu, eyni zamanda uşağı, gənci müstəqil həyata hazırlayan bir səviyyədir. Amma bununla yanaşı, biz istəyirik ki, ali təhsil müəssisələrimiz, universitetlərimiz, birincisi, özləri öz işlərini daim təkmil-ləşdirsinlər və dünya səviyyəsində olsunlar. İkincisi də, universitetlərin varlığı ona görə lazımdır ki, gənclərimiz - ali təhsil almaq həvəsi və qabiliyyəti olan gənclərimiz universitetlərə, ali məktəblərə daxil olsunlar və yüksək səviyyəli mütəxəssislər olsunlar. Əgər bu olmasa, bizim müstəqil ölkəmiz dünyada gedən proseslərin sürəti ilə ayaqlaşa, inkişaf edə bilməz. Təbiidir ki, indi dünyanın hər yerində inkişaf prosesi gedir. Azərbaycan da bu inkişaf prosesinin içindədir. Bunlar onu tələb edir ki, hər il bizim universitetlərimizə yeni yüksək təhsilə, yüksək qabiliyyətə, yə'ni universitet səviyyəsində təhsil almağa malik olan gənclər qəbul edilsinlər. Bu il 25 minə qədər gəncin test üsulu ilə imtanhanlarını verib universitetlərə, ali məktəblərə qəbul olunması, bizim - Azərbaycanın, müxtəlif problemlər içərisində yaşayan ölkənin ən əsas nailiyyətlərindən biridir. Bu eyni zamanda onu göstərir ki, Azərbaycan xalqı inkişaf etmiş xalqdır. Azərbaycan xalqı öz köklərinə görə zehni inkişaf etmiş xalqdır. Biliyə, inkişafa həmişə diqqət vermiş və bu yol ilə getmiş xalqdır. Bizim çoxəsrlik keçmiş tariximiz də bunu sübut edir. XX əsrdə Azərbaycan xalqının keçdiyi yol, o cümlədən, son on ildə Azərbaycan xalqının müstəqil dövlət çərçivəsində yaşadığı dövr də bunu bir daha, bir daha sübut edir.

Mə'lumdur ki, Ermənistanın Azərbaycana 1988-ci ildən başlayan hərbi təcavüzü və sonrakı illərdə müxtəlif səbəblərdən Azərbaycan torpaqlarının 20 faizinin işğal olunması nəticəsində bir milyondan artıq soydaşımızın qaçqın, köçkün vəziyyətinə düşməsi nəticəsində və bu dövrdə Azərbaycanın daxilində, təəssüflər olsun ki, xalqın zərərinə yönəldilmiş müxtəlif proseslərin nəticəsində Azərbaycan ağır bir dövr yaşayıbdır. Bu ağır dövr Azərbaycanın həyatının, demək olar ki, hər bir sahəsinə toxunubdur. O mə'nada ki, zərər gətiribdir, çox şeyləri pozubdur, dağıdıbdır. Amma bunlara baxmayaraq, bizim təhsil sistemimiz yaşayıbdır. Doğrudur, o illərdə, yə'ni 1990-cı illərin əvvəllərində başqa sahələrdə olduğu kimi, təhsil sahəsində də çox böyük pozğunluqlar vardı. Bə'zən bu sahə unudulmuşdu. Bə'zən bu sahədə özbaşınalıq yer tutmuşdu. Amma bunlara baxmayaraq, bizim xalqımız XX əsrdə yaranmış ən'ənələri davam etdiribdir. Son illərdə, 1995-1996-cı illərdən sonra, Azərbaycan artıq müəyyən daxili proseslərdən xilas olandan, Azərbaycanın daxilində ictimai-siyasi sabitlik bərqərar olandan sonra, Azərbaycanda bütün sahələrdə islahatların keçirilməsi nəticəsində, o cümlədən təhsil sahəsində islahatlar nəticəsində başqa sahələrdə olan inkişaf, eyni zamanda təhsil sahəsində də özünü göstərir. Əgər belə olmasaydı, indi bizim böyük təhsil müəssisələrimiz yüksək səviyyədə olmazdı. Əgər bizim orta təhsil sistemimiz tam pozulmuş olsaydı, bu cür ağır imtahanlardan keçən gənclərin bu gün burada nümayiş etdirilən nəticələri olmazdı. Bizim gənclərimizin əksəriyyəti çox iste'dadlıdır. Onların harada, hansı şəraitdə yaşamasından asılı olmayaraq, biliyə, təhsilə həvəsi və marağı çoxdur.

İndi 25 Prezident təqaüdü tə'yin olunubdur. Burada e'lan edildi. Ali məktəblərə qəbul edilənlərin böyük bir hissəsi işğal olunmuş torpaqlardan didərgin düşmüş ailələrin uşaqlarıdır. Yaxud çadır şəhərciyində, Biləsuvarda o ağır şəraitdə yaşayan uşaqdır, gəncdir və bunların çoxu universitetlərə qəbul olunubdur. Ancaq bu gün burada adları çəkilənlər hamıdan yüksək bal aldıqlarına görə Prezident təqaüdünə layiq görülüblər. Mən arzu edərdim ki, bu göstəricilər artsın və Prezident təqaüdünün də sayı çoxalsın. Ancaq məni çox düşündürən məsələlərdən biri də odur ki, ümumiyyətlə, bizim ali təhsil müəssisələrində oxuyan tələbələrin hamısının təqaüdünün artırılmasına nail ola biləm. Güman edirəm, bu da olacaqdır.

İndi bu prosesin böyük bir mərhələsi arxada qalıbdır. 25 min gənc universitetlərə daxil olubdur. Estafeti universitetlər götürüblər. Onların vəzifəsi qəbul olunan gənclərin hamısının yaxşı təhsil almasını tə'min etməkdir. Universitetlərin, ali məktəblərin üzərinə çox böyük vəzifələr düşür və çox da böyük məsuliyyət düşür.Rektorlar burada iştirak edirlər. Bu, təkcə rektorlardan asılı deyil, hər bir müəllimdən, universitetdə fəaliyyət göstərən hər bir şəxsdən asılıdır. Bizdə bu sahədə də nöqsanlar var və çoxdur. Mən bunu e'tiraf etməliyəm. Mən indi nailiyyətlər haqqında geniş danışanda heç kəs elə düşünməsin ki, guya hesab edirəm ki, bizim bütün təhsil sistemi, o cümlədən orta təhsil sistemi qüsursuzdur, nöqsansızdır. Yox. Çox nümunəvi məktəblər də var. Ancaq təəssüflər olsun ki, geridə qalanları da var. Yaxud bə'zi məktəblərdə çox namuslu, sədaqətli, tələbəyə yaxşı bilik verən müəllim də var. Amma onunla yanaşı, vaxtını keçirənlər, tələbənin biliyi haqqında o qədər də çalışmayanlar da var. Vəziyyət müxtəlifdir və bu həqiqəti biz heç vaxt inkar etməməliyik. Bu sözlər, bu fikirlər universitetlərə də aiddir. Mən hər halda təhsil işi ilə uzun illərdir məşğulam. Həm keçmişdə



Azərbaycanın rəhbəri olduğum zaman, hətta Moskvada işləyəndə, Siyasi Büronun üzvü, Nazirlər Soveti sədrinin birinci müavini kimi, o vaxtkı SSRİ-nin bütün təhsil sisteminə, yə'ni təhsillə məşğul olan nazirliklərə - onda Ali Təhsil Nazirliyi, Maarif Nazirliyi, Texniki Peşə Təhsili Komitəsi var idi - rəhbərlik hökumət tərəfindən, dövlət tərəfindən mənə tapşırılmışdı. Ona görə mən bu işlərlə çox məşğul olmuşdum. Bilavasitə çox universitetlərdə olmuşdum. Ona görə mən bu işləri şəxsən, yə'ni öz iş fəaliyyətimə görə bilirəm. Azərbaycanda keçmişin, bizim ali məktəblərin qüsurlarını da bilirəm. Bugünküləri də bilirəm. Ancaq bununla yanaşı, hesab edirəm ki, biz irəliyə gedirik. Ancaq əgər



hər bir universitet müəllimi bu şərəfli adı şərəflə daşısa, irəliyə daha da sür'ətlə getmək olar.Mə'lumdur ki, məsələn, universitetlərdə müəllimlərin maaşları istənilən səviyyədə deyildir. Biz bu məsələni də həll etməyə çalışırıq. Ancaq imkanlarımız artdıqca bunları edəcəyik. İndi biz imkanımız çərçivəsində nə mümkündür etmişik. Ancaq iş onda deyil ki, maaşın çoxdur, ya azdır, yaxud da sənin avtomobilin var, yoxsa yox, yaxud da ki, sənin təmtəraqlı bağın var, yoxsa yox. İş onda deyildir. Qaçqın vəziyyətində yaşayan uşaq nə qədər böyük məhrumiyyətə düçar olubdur. Ancaq o, oxuyub və ona təhsil verən müəllim də yəqin ki, müəllim adını şərəflə daşıyıbdır. Ona görə də gəlib ali məktəbə qəbul olunmuş 25 min tələbənin içərisində ən yüksək bal toplayıbdır.

Beləliklə, mən üzümü universitetlərə, müəllim-professor hey'ətinə, təhsil sahəsində işləyən bütün vətəndaşlarımıza tuturam ki, Azərbaycan xalqının gələcəyi, müstəqil Azərbaycanın gələcəyi gənclərin bu gün aldıqları bilik, təhsil və tərbiyədən asılıdır. Xüsusən, aparıcı qüvvə, hər bir ölkənin, hər bir millətin aparıcı qüvvəsi onun bilikli nümayəndələridir. Onun yüksək təfəkkürə, yüksək biliyə, yüksək ixtisasa malik olan insanlarıdır. Bunları da yetişdirmək üçün universitetlərin qarşısında çox böyük vəzifələr durur. Mən arzu edərdim ki, bizim universitetlər, - görürəm ki, bizim universitetlər bir neçə il bundan öncəki dövrlə müqayisədə çox inkişaf edibdir, ancaq bu, hələ günün tələblərini tam ödəmir, sabahın tələblərini isə heç ödəmir - işlərini təkmilləşdirsinlər. Professor-müəllim hey'ətinin işə münasibətini daha da yüksəltsinlər, onların özlərinin biliyini daha da yüksəltsinlər ki, gənclərə müasir tələblərə uyğun biliklər verə bilsinlər.

Müstəqil Azərbaycanda bilik alan hər bir gənc gələcəkdə Azərbaycanın mənafeyi üçün çalışmağı qarşısına məqsəd kimi qoymalıdır. Ona görə, gərək o, öz ölkəsini yaxşı tanısın, öz tarixini yaxşı bilsin və seçdiyi ixtisasda sadəcə, mütəxəssis yox, ən yüksək səviyyəli mütəxəssis olmağa çalışsın. Bu imkanlar var. Xalqımızın bu sahədə, yenə də deyirəm, zehni potensialı böyükdür. İndiki gənclərin isə əvvəlki dövrlərə nisbətən bu potensialı daha da böyükdür. Bizim hamımızın vəzifəsi bunlardan səmərəli istifadə etməkdir. Gərək onlar Azərbaycanın gələcəyi üçün, Azərbaycanda indi bizim apardığımız islahatların gələcəkdə nəticələrini həyata keçirmək üçün, Azərbaycanı daim müstəqil, demokratik, hüquqi, dünyəvi dövlət kimi yaşatmaq üçün, əvvəlkilərdən fərqli olaraq, indi daha da çox bilik alsınlar, müasir həyatı daha yaxşı dərk edə bilsinlər, müasir texnikadan, texnologiyadan istifadə edə bilsinlər. Bu yol ilə də biz Azərbaycanın gələcəyini istədiyimiz kimi görə biləcəyik. Biz isə istəyirik ki, Azərbaycanın gələcəyi daha da parlaq olsun. Azərbaycan müstəqil bir dövlət kimi bütün sahələrdə nailiyyətləri ilə dünya dövlətləri içərisində seçilsin. Bütün gördüyümüz bu işlər Azərbaycan vətəndaşlarının rifah halının yüksəlməsinə yönəldilibdir. Biz bunu tə'min etmək istəyirik. Amma gələcək nəsillər bunu daha da yüksək səviyyədə tə'min etməlidirlər. Bax, bunlara görə də indi bizim ali məktəblərdə, universitetlərdə təhsil, tərbiyə gərək keçmiş illərdən xeyli üstün olsun, xeyli fərqli olsun.

Universitetlərdə insan gənclik həyatını yaşayır. Mən sizə deyə bilərəm ki, bu, insanın həyatının ən gözəl bir hissəsidir. Mən arzu edərdim ki, bizim hər bir gənc, hər bir tələbə bax, bu dövrü uğurla keçsin. Çünki bu dövrdə gəncin formalaşması, onun lazımi bilik alması, lazımi mə'nəvi dəyərləri dərk etməsi, milli dəyərləri dərk etməsi, müasir dünyanı dərk etməsi onun gələcəyinin əsasıdır, təməlidir. Əgər bu təməl gənclik dövründə, xüsusən ali məktəblərdə qoyulmasa, birincisi, gələcəkdə bizim gənclər böyük çətinliklərlə rastlaşacaqlar və ikincisi, gələcək nəsillərin istədiyimiz səviyyəyə qalxması çətin olacaqdır. Ona görə də əziz övladlarımız, siz bilin, mən həyatın bütün mərhələlərini keçmiş bir adam kimi, arxaya baxaraq, hər dövrü təhlil edərək, həyat təcrübəsi olan adam kimi sizə deyirəm: Bu illəri boş keçirməyin, bu illəri itirməyin. Öz fiziki sağlamlığınıza fikir verin. Onun üçün də gərək siz sağlam həyat tərzində yaşayasınız. Çalışın, maksimum bilik aıın. Siz təkcə müəllimlərin verdiyi biliklə kifayətlənməyin, başqa bütün ədəbiyyatla da tanış olun və yüksək mə'nəvi dəyərlər əsasında yaşayın.

*601.375 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.*
*Mingəçevir 1 saylı şəhər orta məktəbinin mə'zunudur.*
*Ailələri 6 nəfərdən ibarətdir.*
*Atası işləmir.*
*Anası Mingəçevir şəhəri 16 saylı orta məktəbdə müəllimdir.*



### HÜSEYNOV Emin Məhəmmədəli oğlu

*601.250 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.*
*İmişli rayonu 1 saylı şəhər orta məktəbinin mə'zunudur.*
*Ailələri 5 nəfərdən ibarətdir.*
*Atası İmişli şəhər elektrik şəbəkəsində baş mühasibdir.*
*Anası evdar qadındır.*



### DAŞDƏMİROVA Lamiyə Oqtay qızı

*601.250 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.*
*Binəqədi rayonu 3 saylı orta məktəbin mə'zunudur.*
*Ailələri 5 nəfərdən ibarətdir.*
*Atası 3 saylı orta məktəbdə müəllimdir.*
*Anası 3 saylı orta məktəbdə müəllimdir.*



### İSMAYILZADƏ Rəşad Rasim oğlu

*601.000 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.*
*Bakı Özəl Türk Litseyinin mə'zunudur.*
*Ailələri 4 nəfərdən ibarətdir*
*Atası "Qlobus" şirkətində mühəndisdir.*
*Anası işləmir.*



### KƏRİMOVA Xumar Rövşən qızı

*601.000 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.*
*Yasamal rayonu 175 saylı orta məktəbin mə'zunudur.*
*Ailələri 4 nəfərdən ibarətdir.*
*Atası həkimdir.*
*Anası işləmir.*



### DADAŞOVA Natəvan Təhmasib qızı

*600.625 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.*
*Ağdam rayonu Üçoğlan kənd orta məktəbinin mə'zunudur.*
*Ailələri 5 nəfərdən ibarətdir*
*Atası Ağdam rayonu Üçoğlan kənd xəstəxanasında sahə terapevtidir.*
*Anası 191 saylı orta məktəbdə müəllimdir.*



### İSMAYILOV Ruslan Aslan oğlu

*600.375 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.*
*Xətai rayonu 191 saylı orta məktəbin mə'zunudur.*
*Ailələri 4 nəfərdən ibarətdir.*
*Atası 17 saylı MKİS-in rəisidir.*
*Anası işləmir.*



### FƏRZƏLİYEV Fərhad Mahmud oğlu

*600.250 balla Azərbaycan Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.*
*Nəsimi rayonu 164 saylı orta məktəbin mə'zunudur.*
*Ailələri 4 nəfərdən ibarətdir*
*Atası müəllimdir.*
*Anası müəllimdir.*

## V QRUP ÜZRƏ ƏN YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ ABİTURİYENT



### AXUNDZADƏ Humay Tufan qızı

*610.375 balla Bakı Dövlət Universitetinin psixologiya ixtisasına qəbul olub.*
*Binəqədi rayonu 115 saylı orta məktəbin mə'zunudur.*
*Ailələri 3 nəfərdən ibarətdir.*
*Atası Arxeologiya və Etnoqrafiya İnstitutunda baş elmi işçidir.*
*Anası Nəsimi adına Dilçilik İnstitutunda baş elmi işçidir.*

**P.S.**

***Hörmətli oxucular! Sizi qəbul imtahanında 600-dən yuxarı bal toplayan gənclər haqqında əldə etdiyimiz mə'lumatlarla tanış etdik.***

***Ancaq belə gənclərdən bir neçəsi eyni zamanda həm də Türkiyə ali məktəblərinə daxil olub orada təhsil aldıqlarından, bə'ziləri isə bölgə ali məktəblərinə qəbul olduqlarından, təəssüf ki, onlarla əlaqə yarada bilmədik. Buna görə də Sizə onların haqqında yalnız TQDK-nın kompüter bazasında olan mə'lumatları çatdıra bildik.***

***Əziz oxucular!***

***Redaksiyamız ali məktəblərə yüksək nəticələrlə qəbul olunmuş gənclərlə anket sorğusu keçirmişdir. Sorğu zamanı onlardan belə yüksək nəticə əldə etmələrinin səbəblərini, imtahanlara nə qədər müddətə hazırlaşdıqlarını və bu zaman hazırlığın hansı formalarından istifadə etdiklərini soruşmuş, bütövlükdə test üsulu ilə qəbul imtahanları haqqında rə'ylərini bilmək istəmişik. Onların qəbula hazırlığında "Abituriyent" jurnalının rolu və onun səhifələrində daha hansı materialların dərc olunması barədə fikirlərini öyrənmişik. Yüksək ballı gənclərdən sınaq imtahanlarının rol və əhəmiyyətinə münasibət bildirməyi, habelə gələcək abituriyentlərə qəbula hazırlıqla bağlı öz məsləhət və tövsiyələrini söyləməyi xahiş etmişik. Biz anket sorğusuna verilmiş cavablara heç bir münasibət bildirmədən, heç bir şərh vermədən onlardan bir çox nümunələri Sizə təqdim edir və nəticə çıxarmağı da Sizin öz öhdənizə buraxırıq.***

## *“Qəbul imtahanlarında belə yüksək nəticə əldə etməyinizin səbəbi?” sualına cavablardan nümunələr:*

**Məmmədov Ruzi:** Məktəbdə 11 il yaxşı oxumağım. Xüsusilə son iki ildə təhsil aldığım “Zəngi” litseyinin verdiyi yüksək bilik və özümün sə'ylə, tam gücümlə hazırlaşmağım.

**Bədəlov Rövşən:** Gərgin əmək, ardıcıl çalışmalar, psixoloji hazırlıq, uğur qazanacağıma inam, testlər bankındakı tapşırıqların hamısının həlli, müəllimlərimin əvəzsiz zəhməti.

**Novruzov Elnur:** Yüksək nəticəni müəllimlərimin, valideynlərimin və “Abituriyent” jurnalının köməyi və öz çalışqanlığım sayəsində qazanmışam.

**Süleymanov Ceyhun:** Müəllimlərimin mənim hazırlığımdakı zəhməti, şəxsi çalışmalarım, mə'suliyyətim və əlbəttə ki, “Abituriyent”in əvəzsiz rolu.

**İsmayılov Ramil:** Məktəb müəllimlərimin və valideynlərimin böyük köməyi və sistemli çalışmağım.

**Zahirova Vüsalə:** Mən məktəb imtahanlarına da, qəbul imtahanlarına da eyni dərəcədə yaxşı hazırlaşmışam.

**Quliyeva Rəhimə:** Valideynlərimin qayğı və köməyi, müəllimlərimin zəhməti, həmçinin özümün qarşıya qoyduğum məqsədə çatmaq üçün göstərdiyim sə'y.

**Ələkbərov Ataş:** Respublika fənn olimpiadalarında 3 il ardıcıl yüksək nəticə əldə etməyim və orta məktəbi fərqlənmə attestatı ilə bitirməyim. Bir də ki, müəllimlərimin mənim hazırlığım üçün çəkdikləri böyük zəhmət.

**Yekəyev Emil:** Təhsil aldığım litseydə dərsə tələbkarlığın yüksək olması, müəllimlərimin zəhməti və “Abituriyent” jurnalındakı materiallardan istifadə.

**Şıxəliyeva Nigar:** Aşağı siniflərdən sonuncu sinfə qədər yaxşı oxumuşam. XI sinifdə keçdiklərimi ardıcıl və planlı qaydada təkrar etmişəm. Əlavə olaraq 7 ay repetitorla məşğul olmuşam. Bunlar yüksək nəticə əldə etməyim üçün yetərli olub.

**Məmmədli Azər:** Təhsil müddətində ə'la qiymətlərlə oxumağım, mə'zunu olduğum “Zəkalar” litseyində təhsilin yüksək səviyyəsi, imtahan verdiyim fənlərə böyük marağım və son ildə bə'zi fənlər üzrə əlavə hazırlıq keçməyim.

**Əliyev Anar:** Qəbula sistemli hazırlaşmağım və seçdiyim ixtisas üzrə yüksək təhsil almaq istəyim.

**Vəliyeva Günel:** Dərin bilikli müəllimlərdən dərs almağım, özümün çalışqanlığım, "Abituriyent" jurnalının materiallarından mütəmadi istifadə etməyim.

**Əmirova Ülviyyə:** Bütün lazımi tədris materiallarını mənimsəməyim, imtahanlara sistemli hazırlaşmağım, sınaq imtahanları vasitəsilə səviyyəmi yoxlayıb biliyimi daha da dərinləşdirməyim və “Abituriyent” jurnalının materiallarından ardıcıl istifadə etməyim.

## *"Qəbula hazırlıqda "Abituriyent" jurnalının rolu barədə nə deyə bilərsiniz və onun səhifələrində daha hansı materialların dərc olunmasını məqsədəuyğun hesab edirsiniz?" sualına cavablardan:*

**Ramazanov Nadir:** "Abituriyent" jurnalındakı testlər məktəbdə mənimsədiyim biliyi yoxlamağa imkan verdi.

**Yekəyev Emil:** Abituriyentlər jurnalda dərc edilən materiallardan hərtərəfli mə'lumat əldə edirlər. Bu da onların ali məktəbə qəbul olmaq şansını artırır.

**Xələfov Rasim:** "Abituriyent" şagirdlərə öz biliklərini dərinləşdirməyə və daha yüksək nəticə əldə etməyə kömək edir. Jurnaldakı testlər onlara öz hazırlıq səviyyələrini yoxlamağa imkan yaradır.

**Şiriyeva Gülnaz:** "Abituriyent" öz saylarında dərsliklərdə az yer verilən mövzulara dair materiallar dərc etsəydi,bunun imtahanlara hazırlaşanlara çox faydası olardı.

**Novruzov Elnur:** Yüksək nəticə göstərməyimdə "Abituriyent" jurnalı mənə, demək olar ki, 25 faiz kömək göstərib.

**Heydərov Kamal:** Arzu edərdim ki, "Abituriyent" öz səhifələrində çətin sualların izahlı cavablarına geniş yer versin.

**Əzimov Qara:** Fikrimcə, "Abituriyent" jurnalı qəbula hazırlaşanlar üçün çox zəruri mənbədir. İmtahanda uğur qazanmaq istəyən hər bir abituriyent bu jurnaldakı materialları müntəzəm oxumalıdır.

**Məmmədov Ziya:** "Abituriyent" jurnalının, demək olar ki, bütün saylarını oxumuşam və bunun yüksək nəticə göstərməyimə çox böyük köməyi dəyib.

**İmanov Sə'di:** Yaxşı olardı ki, jurnal mübahisəli mövzulara və suallara dair yazılara bundan sonra da öz səhifələrində geniş yer versin.

**Rəhimov Ceyhun:** Mən heç bir abituriyenti "Abituriyent"siz təsəvvür edə bilmirəm. O, abituriyentlərə yol göstərən ulduzdur. Arzu edərdim ki, jurnal məktəb proqramının çətin, mübahisəli mövzularına aid mütəxəssis şərhlərinə daha geniş yer versin.

**Nağıyev Teymur:** İstərdim jurnal çətin testlərin izahlı həllini dərc etsin.

**Quliyev Fariz:** Testlər bankının nəşri şagirdlərin imtahana hazırlığına çox kömək etdi. Jurnalda metodiki tövsiyələrə nə qədər geniş yer verilsə, şagirdlər bundan bir o qədər faydalanar.

**Cəfərli Nəcəf:** "Abituriyent"in 1-ci sayındakı qəbul proqramları, 2-ci sayındakı metodiki tövsiyələr bilik dairəmi genişləndirməyə və dərinləşdirməyə kömək edib. Jurnalda verilən testlər biliklərimi sistemləşdirməyə, möhkəmləndirməyə və ümumiləşdirməyə, həmçinin testin texnologiyası ilə tanış olmağa imkan yaradıb.

**Hacıyev Yaşar:** "Abituriyent" jurnalı ikinci müəllimim olub.

**Əsgərova Gülşən:** Abituriyentlərin qəbula hazırlığında jurnalın əvəzedilməz rolu var. Hər bir abituriyent jurnaldan qəbulla bağlı istənilən mə'lumatı ala bilir.

**Məmmədova Şəfa:** "Abituriyent"də dərc olunan dəqiq, aydın informasiya və tövsiyələrin mənimsənilməsi abituriyentlərə qəbul imtahanları zamanı özlərini tam sərbəst hiss etməyə kömək edir.

**Həsənov Emil:** "Abituriyent" mənə çox kömək edib, mənim əvəzsiz bilik mənbəyim olub. Bu jurnalı nəşr edənlər Azərbaycan təhsilinə böyük xidmət göstərirlər.

**Şahverdiyeva Gülnar:** "Abituriyent" jurnalı dərsliklərdə səthi verilən mövzulara dair əlavə materiallar dərc etməklə bizim həmin mövzuları dərindən mənimsəməyimizə çox kömək edib.

**Vəliyeva Xəyalə:** Jurnal abituriyentlərə imtahana hazırlığın ən düzgün yollarını göstərir, bunun üçün onları ən vacib metodiki materiallarla tə'min edir.

**Qarayev Emil:** Jurnaldakı materialları öyrənməyimin, xüsusən də testlər bankındakı suallar üzərində işləməyimin yüksək nəticə əldə etməyimdə böyük rolu olub. İstərdim ki, jurnalda çətin, mürəkkəb məsələlərin şərhinə aid məqalələrə daha geniş yer verilsin.

**Muxtarov Kamran:** "Abituriyent"dəki metodiki məqalələr proqram materiallarını daha yaxşı mənimsəməyimə kömək edib.

**Əliyeva Nərminə:** Jurnal düzgün istiqamət götürməkdə abituriyentlərə bələdçilik edir.

**Duşturova Təranə:** Jurnaldakı materiallar sayəsində biz həm imtahanın məzmunu, həm də texnologiyası barədə bilik və mə'lumatlar əldə etmişik.

**Bədəlov Vasif:** Jurnaldakı testlər hazırlıq səviyyəmi yoxlamağa, metodiki materiallar isə biliyimi dərinləşdirməyə kömək etdi.

**Əliyev Vüsal:** Qəbula hazırlıq müddətində "Abituriyent" jurnalından tam şəkildə faydalanmışam. Onun səhifələrində dərsliklərdə olmayan mövzu və sualların şərhinə və izahına geniş yer verilsə, çox faydalı olar.

**Ələkbərov Ataş:** "Abituriyent" jurnalı hər bir abituriyentin ən yaxın köməkçisidir.

**Məmmədli Azər:** Jurnal abituriyentlərə mövzuları dərindən mənimsəməyə kömək edir, onlara testlərlə işləmək vərdişləri aşılayır. Dərsliklərdə səthi toxunulan mövzuların jurnalda işıqlandırılması faydalı olar.

**Əlimov Anar:** Jurnalın xüsusi buraxılışı olan testlər bankı abituriyentləri əvvəlcədən imtahanda hansı tipli suallarla qarşılaşacağı ilə tanış etdi. Orta və çətin tipli sualların həlli isə onların qarşıdakı imtahana daha yaxşı hazırlaşmasına imkan yaratdı.

**Mustafayeva Elgül:** İmtahana hazırlıq zamanı belə hallar çox olub ki, testlər bankında yaxşı bilmədiyim və yaxud öyrənməyi nəzərdən qaçırdığım suallarla qarşılaşmışam. Bu zaman məcbur olub onları öyrənmək üçün yenidən dərslik üzərinə qayıtmışam. Bu da testlər bankının həm də nəzarətedici funksiya yerinə yetirdiyini, yə'ni bizim biliklərimizin dərinləşməsinə kömək etdiyini göstərir.

**Hacıyeva Aytən:** Mən jurnalın bütün saylarından faydalanmışam. Xüsusən də testlər bankındakı suallar üzərində işin mənə çox köməyi olub.

**Hətəmov Səlahəddin:** Qəbul imtahanlarına səmərəli hazırlaşmağımda "Abituriyent"in mənə çox köməyi olub. Jurnalda dərsliklərdə zəif işıqlandırılan mövzulara dair materiallara daha çox yer vermək lazımdır.

**Əliyeva Ülviyyə:** “Abituriyent” jurnalını mənim və yaşıdlarımın imtahanlara hazırlıq yolunu işıqlandıran Dan ulduzuna bənzətmək olar.

**Allahverdi Paşayev:** "Abituriyent" jurnalı imtahana hazırlaşanlar üçün "uğur körpüsü"dür.

## *Sınaq imtahanları barədə fikirlərdən:*

**Bayramov Ernest:** Sınaq imtahanları qəbula düşən sualların səviyyəsi ilə yaxından tanış olmağa imkan yaratdı.

**Quliyev Nəcəf:** Sınaq imtahanları mənə test imtahanının texnologiyası və qaydaları ilə tanış olmağı, ən vacibi isə vaxtdan səmərəli istifadə etməyi öyrədib.

**Yarmetov Elşad:** Sınaqdan sonra öz biliyimin səviyyəsini müəyyənləşdirdim.

**Aslanov Kən'an:** Sınaq imtahanları ilə qəbul imtahanları texnoloji cəhətdən oxşardır, ən mühüm məqam isə odur ki, sınaqdakı suallarla qəbul imtahanındakı suallar səviyyəcə uyğundur.

**Əliyeva Leyla:** Sınaq imtahanlarında iştirak etdiyimə görə qəbul imtahanında özümü itirmədim.

**Ələkbərov Tural:** Öz səviyyəni əvvəlcədən bilməyə, imtahanın qaydalarını və texnologiyasını öyrənməyə kömək edir.

**Muxtarov Kamran:** Bir neçə dəfə sınaq imtahanında iştirak etdim. Sınaqdan sınağa nəticələrim yüksəldi. Bu, onun nəticəsi idi ki, mən hər dəfə sınaq imtahanındakı nəticələrimi təhlil edir, səhv cavab verdiym, yaxud cavab verə bilmədiyim suallarınn, mövzuların üzərinə bir də qayıdır və bu yolla da hazırlıq səviyyəmi artırırdım.

**Əhmədov Emil:** Sınaq imtahanında iştirak etməklə mən həmin ərəfədəki bilik səviyyəmi müəyyənləşdirir və hazırlıqla bağlı gələcək işlərimi dəqiqləşdirirdim.

**Quliyeva Ramilə:** Sınaq imtahanları mənə qəbul imtahanına psixoloji cəhətdən hazır olmağı, həyəcanlanmamağı, imtahanın texnologiyasına, qaydalarına bələd olmağı və vaxtdan səmərəli istifadə etməyi öyrədib.

**Nəcəfov Qabil:** Sınaq imtahanları vasitəsilə mən zəif cəhətlərimi aşkar etdim, sonra öz üzərimdə ciddi çalışaraq bunları mümkün qədər aradan qaldırdım ki, onlar qəbul imtahanlarında təkrar olunmasın.

## *Test üsulu ilə qəbul imtahanı haqqında rə'y və təkliflərdən nümunələr:*

**Ramazanov Nadir:** Test üsulu ilə imtahan abituriyentə öz biliyini tam və sərbəst surətdə nümayiş etdirməyə imkan verir.

**Nəzərov Orxan:** İmtahan verənlərin hamısı üçün eyni şərait, eyni imkanlar mövcud olur.

**Hacıyev Şaiq:** Obyektivlik tə'min olunur. Ən'ənəvi imtahana xas olan subyektiv amilin - müəllimin imtahan verənə güzəşt, kömək və ya əksinə təzyiq göstərməsinin qarşısı alınır.

**Manafova Bənövşə:** Bu imtahanda yalnız biliyi olanlar qələbə qazanır.

**Qəhrəmanov Söhrab:** Abituriyentlərin öz biliklərini tam nümayiş etdirməsinə imkan yaranır.

**Nəbiyeva Süsən:** "Abituriyent" jurnalındakı materialları oxuyub, testlər bankındakı sualları həll etdikdən və sınaq imtahanlarında iştirak etdikdən sonra test üsulu ilə qəbul imtahanı mənə adi bir proses kimi asan gəldi. Və mən öz biliyimi tam sərbəst surətdə ortaya qoya bildim.

**Quliyev Camal:** Test sualları fənlər üzrə məktəb proqramını tam əhatə edir, imtahanın özü obyektiv keçir və abituriyentlərə öz biliklərini tam nümayiş etdirməyə imkan verir.

**Rüstəmov Elşən:** Qısa vaxt - 3 saat ərzində on minlərlə abituriyentdən qəbul imtahanı götürmək və həm də bu zaman hamı üçün eyni şəraiti tə'min etmək test sisteminin çox böyük üstünlüyüdür.

**İmanov Sə'di:** Test sistemi hər bir abituriyentə öz biliyi hesabına istədiyi ali məktəbə və ixtisasa qəbul ola bilmək imkanı yaradır.

**Rəhimov Ceyhun:** Dəqiqlik, aydınlıq, konkretlik, obyektivlik, profil fənlərdə çətin testlərin çox olması, ayrılan imtahan vaxtının optimallığı - bunlar test imtahanının başlıca üstün cəhətləridir.

**Əhmədov Bəhruz:** Düzgün cavabın verilən cavab variantlarının içərisində olması bə'zən adi halda adamın hafizəsində olmayan cavabı yada salmağa kömək edir. Digər tərəfdən isə dəqiq bilmədiyin cavabı fikir yürütməklə də tapmaq olur.

**Əliyev Ariz:** Biliklilər, iste'dadlılar kənarda qalmır, öz zəhmətlərinin bəhrəsini görürlər.

**Məmmədova Şəfa:** Test tapşırıqlarında bir neçə cavabın verilməsi abituriyentin analitik təfəkkürünün inkişaf etməsinə və onun məntiqi cəhətdən düzgün düşünməsinə böyükköməklik göstərir.

**Qafarova Günay:** Abituriyent öz biliyini tam şəkildə nümayiş etdirmək üçün bütün imkanları əldə edir.

**Vəliyev Elnur:** Ayrı-seçkiliyə yol verilməsinin qarşısı alınır.

**Əsgərova Şəhla:** Test üsulunun bir üstün cəhəti də ondan ibarətdir ki, əgər sən həyəcan və ya digər səbəb üzündən bildiyini yaddan çıxarmısansa, testdəki cavab variantlarına baxdıqda onlar səni düzgün cavaba yönəldir.

**Səmədov Rəvan:** Test imtahanları dəqiq, qərəzsiz və obyektivdir. Bu sistem abituriyentlərə öz bilik və bacarıqlarını göstərmək üçün verilən şansdır.

**Duşturova Təranə:** Hər dörd səhvin bir düzü ləğv etməsi qaydası abituriyenti təsadüfi cavablardan çəkindirir, suallar üzərində hərtərəfli fikirləşməyə sövq edir.

**Əsgərova Leyla:** Test üsulu ilə imtahanda sanki özün özünü imtahana çəkirsən, heç bir təzyiq, heç bir maneə hiss etmirsən, həyəcanlanmırsan, özünü sərbəst hiss edirsən. Biliyi nümayiş etdirmək üçün bundan əlverişli şərait ola bilərmi?!

**Fərzanə Rüfət:** Test imtahanları zamanı abituriyent öz imkanlarını müəllim-şagird psixoloji faktorunun iştirakı olmadan sərbəst şəkildə ifadə edir.

**Əlimov Anar:** Əgər sənin əvvəlcədən bütün mövzular üzrə hazırlığın varsa, ancaq test imtahanı zamanı hər hansı bir sualı unutmusansa, testdəki cavab variantları bunu sənin yadına salacaq.

**Quliyeva Ramilə:** Bə'zən imtahanda elə suallarla qarşılaşırsan ki, onların cavabını dəqiq bilmirsən, ancaq 5 cavab variantının müqayisəsi sənə düzgün cavabı tapmaqda kömək edir, əlbəttə, bu, o zaman mümkün olur ki, həmin suallara aid mövzular sənə əvvəlcədən tanış olsun.

**Hüseynova Nazilə:** İmtahanda köçürmənin qarşısını almaq üçün nəzarət gücləndirilməli, nəzarətçilərin özlərinin məs'uliyyəti artırılmalıdır.

**Zahirova Vüsalə:** İstərdim ki, test imtahanındakı suallar daha məntiqli və düşündürücü olsun. Hazırda istifadə olunan suallar isə yalnız dərsliklərdəki cümlələrə, fikirlərə əsaslanır.

**Əsgərov Təhmin:** Nəzarəti gücləndirmək, eyni zamanda variantların sayını artırmaq lazımdır.

**Ələkbərov Tural:** Sənəd qəbuluna qədər bə'zi ixtisasların mahiyyətinin izah və şərhi abituriyentlərin peşə-ixtisas seçimi üçün faydalı olardı.

**Adıgözəlova Nəzrin :** Test imtahanında şifahi nitq bir insani qabiliyyət kimi yoxlanılmır. Yaxşı olardı ki, qəbul imtahanında abituriyentlərin bu qabiliyyəti də hər hansı formada yoxlansın.

**Novruzov Anar:** İmtahana düşən sualların hamısının testlər bankından salınmasını düzgün hesab etmirəm. Sualların bir qismi yenə də qapalı saxlanmalıdır.

**Qarayev Emil:** İmtahan suallarının çətinlik dərəcəsi artırılmalıdır.

**Quliyeva Ülviyyə:** Orta məktəb dərsliklərinə çoxlu test tapşırıqları daxil etmək lazımdır.

**Əhmədov Emil:** "Abituriyent" jurnalında xarici ölkələrdə ali məktəblərə qəbul qaydaları və imtahanları haqqında mə'lumatlar verilməsi də maraqlı olar.

**Quliyeva Ramilə:** Qəbul imtahanında məntiqi təfəkkür və analitik düşüncə tələb edən testlərə daha çox yer vermək lazımdır.

**Seyidov Çingiz:** Valideynlərinin vəzifəsindən və maddi imkanlarından asılı olmayaraq hər bir bilikli gənc

istədiyi ixtisasa qəbul ola bilir.

**Əmirova Ülviyyə:** İllərlə mənimsədiyin biliklər test imtahanında qısa bir vaxtda - 3 saat ərzində aşkara çıxarılır. Həm də imtahanın sonunda sual kitabçanı götürmək və sonradan düzgün cavabların e'lanı sənə harada, nədə səhvə yol verdiyini bilməyə imkan verir. Bunlar test imtahanının çox önəmli üstünlüklərindəndir.

**Novruzova Nigar:** Abituriyentlərin biliyinin, obrazlı desək, eyni bir "tərəzi" ilə ölçülməsi test sisteminin ədalətliliyinin ən mühüm göstəricisidir.

**Tarıverdiyev Əhəd:** Əgər şagird ən'ənəvi imtahanda hər fənn üzrə 3 və ya 4 suala cavab verirsə, test üsulu ilə imtahanda isə 25 sualı cavablandırır. Bu üsul onun bilik səviyyəsini daha dərindən və hərtərəfli surətdə yoxlamağa imkan verir.

**Əhmədova Yeganə:** Abituriyentləri tək-tək oturtmaq lazımdır ki, bir-birlərinə mane olmasınlar. Köçürmə hallarının və köməkçi vasitələrdən istifadənin qarşısını almaq üçün həm variantların sayını çoxaltmaq, həm nəzarətçilərin mə'suliyyətini artırmaq, həm də imtahan otaqlarına nəzarət üçün əlavə texniki vasitələrdən istifadə etmək lazımdır.

## *"Gələcək abituriyentlərə məsləhət və tövsiyələriniz?" sualına cavablardan:*

**Məmmədov Kamran:** Ayrı-ayrı fənlər üzrə bütün mövzuları dərindən öyrənsinlər və həmin mövzulara dair çoxlu test həll etsinlər.

**İsmayılova Leyla:** Qəbula yalnız sonuncu sinifdə oxuyarkən deyil, bütün təhsil müddətində hazırlaşsınlar.

**Manafova Bənövşə:** Gündəlik dərslərini yaxşı oxusunlar, imtahanlara sistemli hazırlaşsınlar, "Abituriyent" jurnalındakı materialları müntəzəm oxusunlar, öyrəndiklərini testlər vasitəsilə yoxlasınlar, hazırlıq səviyyələrini bilmək üçün sınaq imtahanlarında iştirak etsinlər.

**Nəbiyeva Süsən:** 1. Bütün fənlər üzrə yaxşı hazırlaşsınlar; 2. "Abituriyent" jurnalının materiallarından istifadə etsinlər; 3. İmtahanların obyektivliyinə və ədalətliliyinə inansınlar; 4. Öz biliklərinə güvənsinlər; 5. Öz qüvvələrinə inansınlar.

**Mehrəliyev Samid:** Dərsliklərdəki mövzuları mükəmməl öyrənsinlər, eyni zamanda "Abituriyent" jurnalından istifadə etsinlər. Heç bir şayiyəyə uymasınlar. Mən belə bir qənaətdəyəm ki, oxuyana, bilənə heç bir zaval yoxdur.

**Ələsgərov Emil:** Aşağı siniflərdən yaxşı oxusunlar, məqsədyönlü və sistemli hazırlaşsınlar. Onların biliyi yaxşı olarsa, repetitorla məşğələlər daha səmərəli olar.

**İsmayılov Ramil:** Gündəlik dərslərini yaxşı oxusunlar, öyrəndiklərini mütəmadi təkrarlasınlar, qəbula planlı və məqsədyönlü hazırlaşsınlar və əlbəttə ki, "Abituriyent"dən istifadə etməyi yaddan çıxartmasınlar.

**Səmədov Rəvan:** İlk növbədə bütün fənlər üzrə gündəlik dərslərini yaxşı oxusunlar, imtahana düşən fənləri isə xüsusilə mükəmməl öyrənsinlər, sistematik olaraq testlər üzərində işləsinlər. Ancaq əzbərçiliyə uymasınlar. Çünki testləri əzbərləməklə yüksək nəticə əldə etmək olmaz.

**Mustafayeva Elgül:** Dərslikləri dərindən öyrənməyi məsləhət görərdim, çünki dərslərini mükəmməl öyrənən şagird istənilən testlərin öhdəsindən gələ bilər.

**Quliyeva Ramizə:** Gələcək abituriyentlərə məsləhət görürəm ki, qəbul imtahanlarına hazırlıq dövründə "Abituriyent" jurnalındakı metodiki material, məqalə və testlərdən istifadə etsinlər. Bir də ki, dərslərini yaxşı öyrənsinlər.

**Mürsəlov Natiq:** Ardıcıl və fasiləsiz hazırlaşmağı, sınaq imtahanlarında iştirak etməyi, "Abituriyent" jurnalının materiallarından istifadə etməyi məsləhət görürəm.

**Həsənov Emil:** Əziz kiçik bacı və qardaşlarım, "Abituriyent" jurnalını alın, istifadə edin. Əmin olun ki, Siz bu əvəzsiz jurnalda bütün suallarınıza cavab tapacaqsınız.

**Aslanov Kən'an:** Gələcək abituriyentlərə üzümü tuturam: gündəlik dərslərinizə mükəmməl hazırlaşın, "Abituriyent" jurnalından və TQDK-nın digər nəşrlərindən ardıcıl istifadə edin, belə olan halda əmin olun ki, mütləq uğur qazanacaqsınız.

**Hüseynova Nazilə:** Gələcək abituriyentlərə məsləhət görürəm ki, öz bilik istiqamətinə uyğun ixtisasları seçsinlər. Bu, həm onların imtahanda uğur qazanmaları üçün, həm də gələcək həyatlarını düzgün qurmaları üçün vacib şərtdir.

# Məktublardan sətirlər

**Əziz oxucular!**

***Ali məktəblərə tələbə qəbulu müsabiqəsi bir aydan çoxdur ki, başa çatıb. Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına hələ də ictimaiyyətin ən müxtəlif təbəqələrindən imtahanların gedişi və nəticələri haqqında çoxlu məktublar, teleqramlar və müraciətlər daxil olur. İctimai rə'yin əks-sədası olan belə materiallara jurnalımızın bu sayında da yer ayırırıq.***

### TELEQRAM: Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri Məleykə xanım Abbaszadəyə


N:400050039, ÇAP:*, HARADAN:142102 07/09/01 12:09
BAKI 102 102/006590 75 7/9 10:15

BAKI 78 TƏLƏBƏ QƏBULU ÜZRƏ DÖVLƏT KOMISSIYASININ SƏDRI MƏLEY KƏ XANIM ABBASZADƏYƏ

RƏHBƏRI OLDUĞUM 71 SAYLI AĞDAM KÖÇKÜN ORTA MƏKTƏBININ MƏZUNU GIZ NƏVƏM ƏKBƏROVA AYSEL TƏYYAZ GIZI YÜKSƏK BALLA AZƏRBAYCANIN ƏN NÜFUZLU ALI TƏHSIL OCAĞI OLAN TIBB UNIVERSITETINƏ GƏBUL OLUNMUŞDUR HABELƏ YÜKSƏK PREZIDENT TƏQAÜDÜ ALMAQ AYSEL BALAMA QISMƏT OLMUŞDUR HƏM TƏŞKILATI HƏM DƏ IMTAHANLARIN GEDIŞI PROSESINI ELMI ŞƏKILDƏ IDARƏ ETDIYINIZƏ GƏNCLƏRIN ÖZ BILIYININ OBYEKTIV QIYMƏTLƏNDIRILMƏSINƏ ŞƏRAIT YARATDIĞINIZA GÖRƏ SIZƏ TƏLƏBƏ QƏBULU ÜZRƏ DÖVLƏT KOMISSIYASINA DƏRIN MINNATDARLIĞIMI BILDIRIRƏM

ƏZIMOV SƏLIM BAKI ŞƏHƏRI 71 SAYLI AĞDAM KÖÇKÜN ORTA MƏKTƏBIN DIREKTORƏ ƏKBƏROV AYSELIN BABASI

Oğlum Cavid Məmmədov 694,375 balla İqtisad Universitetinin beynəlxalq iqtisadi münasibətlər fakültəsinə daxil olub. Bunu möhtərəm Prezidentimizin yaratdığı sağlam abu-havanın və obyektivliyin yüksək təzahürü hesab edir və valideyn kimi möhtərəm prezidentimiz H.Əliyevə və Sizə dərin minnətdarlığımı bildirirəm.

***Valideyn Məmmədov Rosən***


N:400050039, ÇAP:*, HARADAN:142102 07/09/01 12:09
BAKI 102 102/006590 75 7/9 10:15

BAKI 78 TƏLƏBƏ QƏBULU ÜZRƏ DÖVLƏT KOMISSIYASININ SƏDRI MƏLEY KƏ XANIM ABBASZADƏYƏ

RƏHBƏRI OLDUĞUM 71 SAYLI AĞDAM KÖÇKÜN ORTA MƏKTƏBININ MƏZUNU GIZ NƏVƏM ƏKBƏROVA AYSEL TƏYYAZ GIZI YÜKSƏK BALLA AZƏRBAYCANIN ƏN NÜFUZLU ALI TƏHSIL OCAĞI OLAN TIBB UNIVERSITETINƏ GƏBUL OLUNMUŞDUR HABELƏ YÜKSƏK PREZIDENT TƏQAÜDÜ ALMAQ AYSEL BALAMA QISMƏT OLMUŞDUR HƏM TƏŞKILATI HƏM DƏ IMTAHANLARIN GEDIŞI PROSESINI ELMI ŞƏKILDƏ IDARƏ ETDIYINIZƏ GƏNCLƏRIN ÖZ BILIYININ OBYEKTIV QIYMƏTLƏNDIRILMƏSINƏ ŞƏRAIT YARATDIĞINIZA GÖRƏ SIZƏ TƏLƏBƏ QƏBULU ÜZRƏ DÖVLƏT KOMISSIYASINA DƏRIN MINNATDARLIĞIMI BILDIRIRƏM

ƏZIMOV SƏLIM BAKI ŞƏHƏRI 71 SAYLI AĞDAM KÖÇKÜN ORTA MƏKTƏBIN DIREKTORƏ ƏKBƏROV AYSELIN BABASI

### TELEQRAM: Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri Məleykə xanım Abbaszadəyə

Rəhbəri olduğum 71 saylı Ağdam köçkün orta məktəbinin mə'zunu, qız nəvəm Əkbərova Aysel Təyyaz qızı yüksək balla Azərbaycanın ən nüfuzlu ali təhsil ocaqlarından olan Tibb Universitetinə qəbul olunmuşdur. Habelə yüksək Prezident təqaüdü almaq Aysel balama qismət olmuşdur. Həm təşkilati hazırlıq tədbirlərinə, həm də imtahanların gedişi prosesini elmi şəkildə idarə etdiyinizə və gənclərin biliyinin obyektiv qiymətləndirilməsinə şərait yaratdığınıza görə Sizə, Tələbə qəbulu üzrə Dövlət Komissiyasına dərin minnətdarlığımı bildirirəm.

***Əzimov Səlim, Bakı şəhəri, 71 saylı Ağdam köçkün orta məktəbinin direktoru,***
***Əkbərova Ayselin babası***

### MƏKTUB: Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri Məleykə xanım Abbaszadəyə


Председателю Государственной комиссии
по приему студентов госпожа
Малейке ханум Аббасзаде

Спасибо! Именно этим словом я хочу начать свое письмо. К сожалению, такая наивная форма благодарности сегодня в нашем обществе вызывает только лишь ироничную ухмылку у многих, но, к счастью, не у всех. Есть еще у нас люди, облеченные широкими полномочиями, которые не на словах, а на деле показывают, что высокая должность - это не привилегия и средство для личного обогащения, а ответственность за судьбу доверенного тебе дела, за судьбу людей, народа. Таких высокопоставленных чиновников, к сожалению, немного. Одним из них являетесь Вы, уважаемая Малейка ханум. Вот уже на протяжении нескольких лет возглавляемая вами Государственная комиссия по приему студентов своей работой снискала доверие и уважение у подавляющего большинства населения Азербайджана. Потому что сегодня поступающие в вузы страны - поистине подготовленные абитуриенты. В этом году непередаваемую радость в связи с поступлением в вуз своего ребенка испытала и наша семья. Позади переживания, годы отличной учебы в школе, дополнительные занятия с педагогами. Мы, родители, верили в знания своей дочери и в объективность ГКПС. И вот результат: наша дочь Гюнель, набрав высокий балл, стала студенткой факультета лечебное дело медицинского университета. Могли бы мы об этом мечтать в другое время, не имея необходимой суммы для преодоления всех барьеров? Конечно, нет!

От имени нашей семьи мы говорим вам спасибо! Ведь если бы вы работали иначе, то сейчас вас благодарили бы совсем по другому, вы были бы задарены всеми материальными благами в избытке. (Так живут сегодня многие люди, которым доверены различные посты). Вы же выбрали добросовестное отношение к порученному вам делу, честность, порядочность, цивилизованные методы зарабатывания денег. Пусть небольших, зато честных. И самой большой наградой для вас, я уверен, будет благодарность людей, чьи дети смогли реализовать свои знания, их простое «спасибо». Сотни тысяч сегодняшних студентов многие годы будут с благодарностью вспоминать ту объективную обстановку, которую именно вы создали во время приемных экзаменов.

Еще я хочу выразить огромную признательность президенту Азербайджана Гейдару Алиеву за то, что, несмотря на бесконечные попытки очень высоких чиновников очернить вашу работу, сместить вас с занимаемой должности (еще бы, какое хлебное место пропадает!) с тем, чтобы усадить в ваше кресло более покладистого, послушного, корыстолюбивого человека, он по достоинству оценивает ваш искренний труд, поддерживает вас. И только благодаря этому сегодня в Азербайджане растет достойное поколение образованных людей.

Спасибо вам за вашу работу!

Мамедов Х.З.

Sağ olun. Mən öz məktubumu məhz bu sözlərlə başlayıram. Minnətdarlığın bu sadə forması, təəssüf ki, bu gün cəmiyyətdə çoxlarında istehzalı təbəssüm doğurur, ancaq xoşbəxtlikdən hamıda yox.

Bizdə geniş səlahiyyətlərə malik olan elə adamlar var ki, onlar sözlə deyil, işlə sübut edirlər ki, yüksək vəzifə imtiyaz və şəxsi varlanma vasitəsi deyil, tapşırılan iş üçün, insanların taleyi üçün mə'suliyyət deməkdir. Hörmətli Məleykə xanım, Siz belə vəzifə sahiblərindənsiniz. Artıq neçə ildir ki, Sizin rəhbərlik etdiyiniz Tələbə Qəbulu üzrə Dövlət Komissiyası öz işi ilə Azərbaycan əhalisinin çox böyük əksəriyyətinin inam və e'tibarını qazanmışdır.

Bu il övladı ali məktəbə qəbul olduğuna görə hədsiz sevinc hissi keçirənlərdən biri də bizim ailəmizdir. Bütün həyəcanlar, məktəb dərsləri, müəllimlərlə əlavə məşğələlər artıq geridə qalıb. Biz valideynlər öz qızımızın biliyinə və TQDK-nın obyektivliyinə inanırdıq. Budur nəticə: qızımız Günel yüksək bal toplayaraq Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Başqa bir vaxtda lazımı məbləğ olmadan, çoxlu maneələri dəf etmədən biz belə bir arzuya çata bilərdikmi? Əlbəttə, yox! Ailəmiz adından Sizə sağ olun deyirəm. İnanıram ki, uşaqları öz real biliyi ilə ali məktəblərə qəbul olan minlərlə mənim kimi valideynin "sağ ol"u Sizin üçün ən böyük mükafatdır. Yüz minlərlə bu günkü tələbə qəbul imtahanlarında yaratdığınız obyektivlik şəraitini uzun illər minnətdarlıqla xatırlayacaqdır.

Mən bir də ölkəmizin prezidenti Heydər Əliyev cənablarına öz dərin minnətdarlığımı bildirirəm ki, Sizin işinizi ləkələməyə çalışanlara məhəl qoymadan Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının fəaliyyətinə həmişə böyük diqqət, qayğı və kömək göstərir. Məhz bunun nəticəsidir ki, hazırda Azərbaycanda layiqli, bilikli adamlar nəsli yetişir.

***Məmmədov X.Z.***

## MƏKTUB: Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri Məleykə xanım Abbaszadəyə


AZƏRBAYCAN RESPUBLİKASI
SİYƏZƏN RAYONU İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI

AZERBAIJAN REPUBLIC
THE HEAD OF THE EXECUTIVE AUTHORITY OF SIAZAN REGION

373070 Siyəzən şəhəri, Babək küçəsi ,52
(190) 5-00-10
Fax: (190) 5-20-48

833
05.09.01

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri Məleykə xanım Abbaszadəyə.

Hörmətli Məleykə xanım,

Xalqımız Azərbaycanın dövlət müstəqilliyinin 10-cu ildönümünü qeyd etməyə hazırlaşır. Möhtərəm Prezidentimiz cənab Heydər Əliyevin müdrik daxili və xarici siyasəti nəticəsində ölkəmizdə iqtisadiyyatın, təhsilin, mədəniyyətin, səhiyyənin və digər sahələrin inkişafı üçün möhkəm zəmin yaradılmışdır. 2001-ci ildə 10-cu dəfə tələbə qəbulunu həyata keçirən Tələbə Qəbulu üzrə Dövlət Komissiyası müstəqilliyimizin xalqımıza bəxş etdiyi böyük töhfələrdəndir. 1992-ci ildən başlayaraq get-gedə təkmilləşdirilmiş test üzrə aparılan imtahan qaydaları artıq abituriyentlər, müəllimlər və valideynlər tərəfindən qəbul edilir və maraqla qarşılanır.

Siyəzən rayonu mə'zunlarının hər il 35-40%-nin ali məktəblərə daxil olması bizi hədsiz dərəcədə sevindirir. 2001-ci ildə sənəd vermiş 286 abituriyentdən 110-u tələbə adını qazanmışdır. Həmin tələbələrlə apardığımız görüşlərdə onlar qəbul imtahanlarının yüksək şəkildə təşkil olunduğunu, obyektivliyə tam əməl edildiyini qeyd etmişlər. Sizin qəbul imtahanlarına apardığınız hazırlıq işləri təqdirəlayiqdir. «Abituriyent» jurnalının xüsusi saylarının nəşri, mətbuat və televiziya vasitəsilə izahatların aparılması, bölgələr üzrə seminarların keçirilməsi, sınaq test imtahanlarının təşkili başçılıq etdiyiniz TQDK-nın gərgin və səmərəli işinə sübutdur. Bunun nəticəsidir ki, rayonumuzun orta məktəblərinin yuxarı sinif şagirdləri, həmçinin müvəffəqiyyət qazana bilməyən abituriyentlər növbəti qəbul imtahanlarına səylə və böyük inamla hazırlaşırlar.

Mən rayonumuzun bütün pedaqoji kollektivlərinin, ziyalılarının, valideynlərinin və əlbəttə ki, tələbələrinin fikrini ifadə edərək Sizə öz təşəkkürümü bildirirəm. İnanıram ki, Siz Möhtərəm Prezidentimizin elmin, biliyin meyar olması tövsiyyəsini əldə rəhbər tutaraq qəbul imtahanları qaydalarında daim təkmilləşdirmələr aparacaqsınız. Sizə cansağlığı və bu yolda uğurlar arzulayıram.

Hörmətlə,

F.M.Hacıyev.

785
10.09.2001

Hörmətli Məleykə xanım!

Xalqımız Azərbaycanın dövlət müstəqilliyinin 10-cu ildönümünü qeyd etməyə hazırlaşır. Möhtərəm Prezidentimiz cənab Heydər Əliyevin müdrik daxili və xarici siyasəti nəticəsində ölkəmizdə iqtisadiyyatın, təhsilin, mədəniyyətin, səhiyyənin və digər sahələrin inkişafı üçün möhkəm zəmin yaradılmışdır. 2001-ci ildə 10-cu dəfə tələbə qəbulunu həyata keçirən Tələbə Qəbulu üzrə Dövlət Komissiyası müstəqilliyimizin xalqımıza bəxş etdiyi böyük töhfələrdəndir. 1992-ci ildən başlayaraq get-gedə təkmilləşdirilən test üsulu ilə qəbul imtahanları abituriyentlər, müəllimlər və valideynlər tərəfindən qəbul edilir və razılıqla qarşılanır.

Siyəzən rayonu mə'zunlarının hər il 35-40%-nin ali məktəblərə daxil olması bizi hədsiz dərəcədə sevindirir. 2001-ci ildə sənəd vermiş 286 abituriyentdən 110-u tələbə adı qazanmışdır. Həmin tələbələrlə apardığımız görüşlərdə onlar qəbul imtahanlarının yüksək şəkildə təşkil olunduğunu, obyektivliyə tam əməl edildiyini qeyd etmişlər. Sizin qəbul imtahanlarına hazırlıqla bağlı apardığınız işlər təqdirəlayiqdir. “Abituriyent” jurnalının xüsusi saylarının nəşri, mətbuat və televiziya vasitəsilə izahatların aparılması, bölgələrdə seminarların keçirilməsi, sınaq test imtahanlarının təşkili başçılıq etdiyiniz TQDK-nın gərgin və səmərəli işinə sübutdur. Bunun nəticəsidir ki, rayonumuzun orta məktəblərinin yuxarı sinif şagirdləri, həmçinin hələlik müvəffəqiyyət qazana bilməyən mə'zunlarımız növbəti qəbul imtahanlarına sə'ylə və böyük inamla hazırlaşırlar.

Mən rayonumuzun bütün pedoqoji kollektivlərinin, ziyalılarının, valideynlərinin və, əlbəttə ki, tələbələrinin fikrini ifadə edərək Sizə öz təşəkkürümü bildirirəm. İnanıram ki, Siz möhtərəm Prezidentimizin elmin, biliyin me'yar olması tövsiyyəsini əldə rəhbər tutaraq qəbul imtahanları qaydalarında daim təkmilləşdirmələr aparacaqsınız. Sizə can sağlığı və bu yolda uğurlar arzulayıram.

***Hörmətlə, F.M. Hacıyev***



## julyismine@yahoo.com Elektron poçtundan məktub: Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri Məleykə xanım Abbaszadəyə

Hörmətli Məleykə xanım!

Sizə və əməkdaşlarınıza tələbə qəbulu işini vicdanla, obyektiv apardığınıza görə öz dərin minnətdarlığımı bildirirəm. Qızım Əşrəfzadə Könül 624,250 balla hüquqşünaslıq ixtisasına, oğlum Əşrəfzadə Elvin isə 658,750 balla beynəlxalq hüquq ixtisasına qəbul olub.

***Müharibə veteranı Məhərrəmov Ülfət Əşrəf oğlu,***
***Xırdalan qəsəbəsi, ev 17, mənzil 31.***

## TELEQRAM: Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri Məleykə xanım Abbaszadəyə


N:400033613. ÇAP:-
HARADAN : 000000 .
14/08/01 18:45
HARA : 142078 .
15/814 30
MƏTN: BAKI 95/136568 119 14/8 1335= BAKI 78 TEL/XƏB TƏLƏBƏ Q
ƏBULU ÜZRƏ DÖVLƏT KOMISSIYASININ SƏDRI MƏLEYKƏ XANIM ABBASZ
ADƏYƏ= BU GÜN MƏNIM ƏN XOŞBƏXT GÜNÜMDÜR OĞLUM MƏMMƏDOV SƏXAV
ƏT OĞLU TƏLƏBƏ ADINA LAYIQ GÖRÜLÜB BILIK YARIŞINDA ÖNCÜLLƏR
DƏN BIRI OLARAQ ARZUSUNA ÇATIB BÜTÜN BUNLARIN REALLAŞMASIND
A TƏBII KI SIZIN ƏMƏYINIZI UNUTMAQ HAQSIZLIQ OLARDI MƏN GÖR
ÜLƏN IŞLƏRIN HEÇ BIRISINI SADALAMAQ FIKRINDƏ DEYILƏM ÇÜNKI
FAKT GÖZ QABAĞINDADIR ÇƏKILƏN ZƏHMƏT HƏDƏR GETMƏYIB BUNA SI
ZIN YARATDIĞIN AB-HAVA MÜHIT SƏBƏB OLUB BIR VALIDEYN KIMI A
NA KIMI SIZƏ ÖZ DƏRIN MINNƏTDARLIĞIMI BILDIRIR SIZIN ÖZ MƏL
EYKƏ ADINIZA LAYIQ BIR QADIN OLMAĞINIZI BIR DAHA SƏMIMIYYƏT
LƏ ETIRAF EDIRƏM ƏN XOŞ ARZULARLA ABITURIYENT= MƏMMƏDOV BƏX
TIYAR SƏXAVƏT OĞLUNUN ANASI ƏLIYEVA ƏNTIQƏ HƏMID QIZI
-36-41 BAKI ŞƏHƏRI BAKIXANOV QƏSƏBƏSI GƏNCLIK 25 A
DAXIL OLAN № 630
SƏNƏD №
18.08.2001

***Bu gün mənim ən xoşbəxt günümdür. Oğlum Məmmədov Bəxtiyar Səxavət oğlu tələbə adına layiq görülüb, bilik yarışında öncüllərdən biri olaraq arzusuna çatıb. Bütün bunların reallaşmasında, təbii ki, Sizin əməyinizi unutmaq haqsızlıq olardı. Mən görülən işlərin heç birisini sadalamaq fikrində deyiləm. Çünki fakt göz qabağındadır. Çəkilən zəhmət hədər getməyib. Buna Sizin yaratdığınız ab-hava, mühit səbəb olub. Bir valideyn kimi, ana kimi Sizə öz dərin minnətdarlığımı bildirir, Sizin öz Məleykə adınıza layiq bir qadın olduğunuzu bir daha səmimiyytlə e'tiraf edirəm. Ən xoş arzularla: abituriyent Məmmədov Bəxtiyar Səxavət oğlunun anası Əliyeva Əntiqə Həmid qızı.***

***Bakı şəhəri, Bakıxanov qəsəbəsi, Gənclik küçəsi 25A, mənzil 30.***

# MÜNDƏRİCAT


Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ali məktəblərə qəbul olmuş tələbələrlə görüşündən materiallar — 1

Yüksək nəticə göstərmiş abituriyentlərimiz

- I qrup — 12
- II qrup — 16
- III qrup — 43
- IV qrup — 71
- V qrup — 87

Yüksək nəticə əldə etmiş gənclərin anket sorğusuna cavablarından nümunələr — 88

Məktublardan sətirlər — 93



ƏZİZ ABİTURİYENTLƏR VƏ YUXARI SİNİF ŞAGİRDLƏRİ !

**"Abituriyent" jurnalı qəbula hazırlaşanlara kömək məqsədilə növbəti saylarında aşağıdakı materialları dərc etməyi nəzərdə tutmuşdur:**

- ☑ imtahan fənləri üzrə qəbul proqramları;
- ☑ testlər bankının çətin suallarının izahlı cavabları;
- ☑ ayrı-ayrı fənlər üzrə təcrübəli mütəxəssislərin metodiki tövsiyələri;
- ☑ qəbul imtahanlarında tətbiq edilən test suallarının modelinə uyğun olan test tapşırığı nümunələri;
- ☑ dərsliklərdə səthi və natamam verilən mövzulara dair mütəxəssis şərhləri;
- ☑ fənn proqramlarının çətin suallarının izahları;
- ☑ xüsusi qabiliyyət tələb edən ixtisaslara qəbulla bağlı zəruri mə'lumatlar, qəbul proqramları, metodiki tövsiyələr;
- ☑ imtahanların təşkili və keçirilməsinə dair nəzərdə tutulan yeniliklər və bunların ətraflı şərhləri;
- ☑ TQDK rəhbərliyinin məqalə və müsahibələri;
- ☑ ali və orta ixtisas məktəblərinə tələbə qəbulu qaydaları, onun geniş təfsilatlı e'lanı, qəbul aparılan ixtisaslar, plan yerləri və s.

**JURNALIMIZIN SAYLARINI İZLƏYİN**